13_27 IYUl-QARA.qxd 4/10/2025 10:28 PM Page 1

UNİKAL

№13 (2243) 11 aprel 2025-ci il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az

# Özəl klinikaların ağlasığmaz vergi borclarının şok pərdəarxası



Səh.8



## Misir Mərdanovun “saxta diplom” yalanları...

*Son vaxtlar Azərbaycanın sabiq iri məmurlarının mediada açıqlamalarına teztez rast gəlirik. Vəzifədə olarkən mediaya bir cümləlik açıqlamanı çox görən “köhnə komanda” nümayəndələri indi birdən-birə (və nəyə görəsə!) mətbuata çox həssas olmağa başlayıblar. Ən əsası isə yüksək post tutarkən adları korrupsiya məzmunlu iddia və ittihamlarla, bir çox hallarda isə konkret faktlarla gündəmdən düşməyən bu sabiqlər indi elə danışırlar ki, sanki süddən çıxmış ağ qaşıqdırlar! Bu yaxınlarda öz açıqlamaları ilə ölkə gündəmini zəbt edən iş adamı İsfəndiyar Axundov (“Şərurlu İsfəndiyar”) söylədiklərinə absurd reaksiya verən eks-təhsil naziri Misir Mərdanov da həmin qəbildəndir. Əslində “Şərurlu İsfəndiyar” öz açıqlamasında daha bir cinayət əməlinə yol verdiyini efirdən etiraf edib.*

Səh.5

## “2025-ci ildə də manatın məzənnə stabilliyi qorunub saxlanmalıdır”



*İqtisadçı Eldəniz Əmirov ”Unikal”a müsahibə verib. O, dünya bazarında neftin qiymətinin ucuzlaşmasından, bunun 2025-ci ilin dövlət büdcəsinə necə təsir edə biləcəyindən, neft qiymətindəki azalmanın dolların məzənnəsinə hansı təsirinin olacağından və ərzaq məhsullarının qiymətlərinin...*

Səh.4

## ADA forumu anti-Azərbaycan və anti-türk siyasətinə qarşı mühüm mesajdır



*“Azərbaycan Prezidenti cənab İlham Əliyev tarixə təkcə əksər yırtıcı güclərin qarşı çıxmalarına rəğmən ölkəsinin işğal altındakı torpaqlarını geri qaytarmağı bacarmış, neçə əsr idi ki, üzərində suverenliyini təhdid edənlərdən Qarabağı tam qurtarmış bir lider kimi düşməyəcək. Türk dövlətlərinin bir araya gəlmələrində...*

Səh.3

## Elman Rüstəmovun Londondakı biznesi “batır”



*Son vaxtlar Azərbaycanın indiki və sabiq məmurlarının bəzilərinin övladlarına məxsus London mərkəzli şirkətlərə dair ilginc məlumatlar yayılmaqdadır. Həmin məlumatlarda bu şirkətlərin maliyyə hesabatlarına əsasən onların ya müflisləşməkdə olduğu, ya da yerli-dibli*

Səh.6

13_27 IYUl-QARA.qxd 4/10/2025 10:30 PM Page 2



# Müğənninin ərinə xəyanət etirafına görə verilişlə bağlı araşdırma başlandı



***"Space TV"də yayımlanan "Tarixin bir günü" verilişində efir etikası və ictimai dəyərlərlə ziddiyyət təşkil edən fikirlərin səsləndirilməsi ilə bağlı iddia sosial şəbəkələrdə ciddi narazılıqla qarşılanıb. Verilişin aparıcısı Tarix Əliyev (Tolik) qonağı müğənni Nüşabə Musayevadan xəyanət edib-etmədiyini soruşub. Qonaq isə xəyanətlə üzləşdiyini, buna cavab olaraq özü də xəyanət etdiyini açıq şəkildə və təbəssümlə dilə gətirib.***

Qonağın bu davranışı haqlı və müsbət bir hərəkət kimi təqdim etməsi, aparıcının isə bu açıqlamaları daha da təfərrüatı ilə öyrənməyə çalışması müzakirələri bir qədər də alovlandırıb.

Sözügedən çıxışlar sosial şəbəkə istifadəçiləri tərəfindən ailə dəyərlərinə, ictimai əxlaq normalarına və ümumi mənəvi prinsiplərə zidd kimi qiymətləndirilib. İzləyicilər hesab edirlər ki, bu tip efir çıxışları xüsusilə gənclər üçün zərərli mesajlar verir və onların davranış modellərinə mənfi təsir göstərə bilər.

Məsələ ilə bağlı oxu.az-ın sorğusuna cavab olaraq Audiovizual Şuranın Kommunikasiya sektorunun müdiri Taleh Quliyev bildirib ki, Azərbaycan Respublikası Audiovizual Şurasının aidiyyəti struktur bölmələri tərəfindən sözügedən fikirlərin efirdə səsləndirilməsi iddiası ilə bağlı müvafiq qaydada araşdırma aparılıb:

"Araşdırmanın nəticələrinə görə, bu il aprelin 9-da 14:45-17:00 efir vaxtında "Space TV"də yayımlanan "Tarixin bu günü" proqramında iddia olunan fikirlərin efirdə yayımlanmadığı aşkar olunub".

# "Küsülü idik, üstümüzə təcili yardım gəlirdi"



***Əməkdar artist Mətanət İsgəndərli illər əvvəl şair-bəstəkar Xanım İsmayılqızı ilə aralarındakı küsülülükdən danışıb.***

Sənətçi bu barədə "Xəzər axşamı"na müsahibəsində söhbət açıb: "Bir mahnı var, "Unut məni". Onu mərhum Xalq artisti İlhamə Quliyeva oxuyub. Axı hər bir dostun arasında inciklik olur. Mən Xanım İsmayılqızı ilə elə bir dost olmuşam ki. Hər gün səhər bir-birimizə zəng edərdik. Evdən çıxmamış onun səsini eşidib sonra işlərimin dalınca gedərdim. O da həmçinin. Bu belə davam edirdi. Bir dəfə aramızda dəydi. Şeytan axı yaxşı dostların arasına girir. İnanın ki, bir halda idim. Mənim üstümə təcili yardım gəlirdi, onun üstünə təcili yardım gedirdi. Bir-birimizdən xəbərsiz. O, "Unut məni" mahnısını sonra eşitdim ki, İlhamə Quliyevaya verib. Sonradan soruşdum ki, deyəsən bu mahnını mənim üçün yazmışdın. O da "hə" cavabını verdi".

# Afaq buna görə "Xəzər TV"dən gedib



***Aparıcı Afaq Gəncəli "Xəzər TV" ilə yollarını ayırmasından danışıb.***

Aparıcıya "Həmin Zaur" verilişində "Gedəndə qapını çırpıb gedirsiniz, yoxsa ehtimal olaraq aralı saxlayırsınız" sualı ünvanlanıb.

"Gedirəmsə, qapını çırpmıram, bağlayıram. Sındırmaqla, çırpmaqla aram yoxdur. Adam var ki, sındırır, dağıdır bununla da ürəyi sakitləşir. Mən belə deyiləm. Sadəcə bağlayıram" deyə, Afaq cavab verib.

Aparıcı daha sonra "Mən bildim siz nəyi nəzərdə tutursunuz (gülür). Siz bu sual ilə kanal məsələsini deyirsiniz. Baxır haradan, necə gedirsən. Getmədim, sadəcə, havamı dəyişdim. Hər yerin havası gözəldir" sözlərini əlavə edib.

Qeyd edək ki, A.Gəncəli uzun illər çalışdığı ATV kanalı ilə yollarını ayırdıqdan sonra "Xəzər TV"də işə başlayıb. Aparıcı bu mövsün fəaliyyətini yenidən ATV-də davam etdirib. /axşam.az

# Səidə Sultan: "Ərimi görməsəniz də olar"



***Müğənni Səidə Sultan saxta evlilik iddialarına cavab verib.***

Bu haqda sənətçi "İncə səhər" verilişinə müsahibəsində danışıb.

Səidə bildirib ki, o, həyat yoldaşını efirə çıxarmaq niyyətində deyil: "İnsanları qınamıram. Onlar müğənnilərin öz yanlarında olan ərlərini reklam etmələrinə və hamının gözünə soxmaqlarına öyrəşiblər. Mənim üçün özünü reklam etməyən kişilər əsl kişilərdir. Niyyətin hara mənzilində ora... Allah məni öz istəyimə çatdırdı. Mənim heç kimə borcum yoxdur ki, kiməsə onu sübut edim. Hamının ərini gördümüsünüz, mənimkini görməsəniz də olar. Əsas odur ki, ərim var. Mən heç zaman yalandan yaşamamışam. Məni tanıyan insanlar bunu bilir". /olay.az

# "Xalqımızın 80 faizi bu gündədir" - Cabbar Musayev



***"Oxuya bilməyənlərin bəxti onda gətirib ki, dinləyicilərin 80-90 faizinin musiqi duyumu yoxdur. Yeni çıxan 3-4 müğənni var, xalqa sübut etdi ki, sizin musiqi duyumunuz çox zəifdir".***

Bu sözləri müğənni Cabbar Musayev "Gün ortası" verilişində deyib. Sənətçi verilişləri tənqid edib: "Baltanı kökündən vururam. "Müğənni" sözünü o qədər ucuzlaşdırıblar ki, oxuya bilənə də, bilməyənə də "müğənni" deyirlər. "Oxuyan" sözü də onlara çoxdur. Bir nəfər mənə dedi ki, sizin yazdığınız "Göz yaşımı görməyəcəksən", "Nə olur Allahım" mahnıları başa düşmürəm. Mənim anladığım "A Leyli, Leyli"dir. Çətin mahnıları başa düşmürəm. Xalqımızın 80 faizi bu gündədir. Verilişlər onlara qucaq açır, ayaqlarının altına gül səpir və elə təqdim edir ki... Bəzi verilişlər bu cəmiyyəti məhv ediblər".

# "Məni o qədər sevən var ki..." - Gövhər Rzayeva

***Əməkdar artist Gövhər Rzayeva sevgidən danışıb.***

Qarmon ifaçısına "Tarixin bir günü" verilişində "Səni də sevən, vurulan var. Özündən yaşda kiçik biri sevgi etirafı etsə nə edərsən" sualı ünvanlayıb.

G.Rzayeva "Məni də sevən var, özü də çoxdur. Amma istəmirəm. Mən evdə qala bilmərəm, sərbəstliyə öyrəşmişəm. Özüm boyda nəvələrim var. Mənə deyərlər başın çatmır, uçub başın" deyə, cavab verib.

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:30 PM Page 3



# Özəl klinikaların ağlasığmaz vergi borclarının şok pərdəarxası

## Absurdun son həddi: fantastik qiymətə müayinə və müalicə edənlərin külli miqdarda borcu necə yaranır? - HƏFTƏNİN ARAŞDIRMASI!

***Yola salmaq üzrə olduğumuz həftə məlum oldu ki, Bakıda fəaliyyət göstərən "Loğman Klinikası"nın külli miqdarda vergi borcu var. Yerli KİV-in məlumatına görə, "Loğman Klinikası" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 132.367,89 AZN vergi borcu yaranıb.***

"Qaynarinfo"nun xəbərinə görə, sözügedən borcun ödənişini gecikdirdiyinə görə klinikanın qanuni təmsilçisi və baş həkimi Quliyev İlqar Hüsü oğlunun ölkədən çıxışı məhdudlaşdırılıb.

Qeyd edək ki, 3 il əvvəl "Loğman Klinikası"nın baş həkimi İlqar Quliyev ona 58 min manat atan iş adamı ilə gündəmə gəlmişdi.

"Unikal"ın araşdırması isə ölkədə, xüsusilə paytaxt Bakıda fəaliyyət göstərən özəl tibb müəssisələrinin vergi borclarını ödəməyə can çəkdiklərini ortaya çıxarıb. Araşdırmamız nəticəsində məlum olub ki:

### Borclu özəl klinikaların sayı bir deyil, beş deyil!

Məsələ burasındadır ki, son vaxtlar bir çox məşhur özəl tibb müəssisələrinin külli miqdarda vergi borcları ilə bağlı xəbərlər intensivləşib. Məsələn, bu ilin fevralında məlum olub ki, "Referans Klinik Laboratoriya və Poliklinika Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC) külli miqdarda borcu yaranıb.

Yenə yerli KİV-də yayılan məlumata görə, adı çəkilən MMC-nin bəhs edilən tarixə vergiyə olan borcu 100 min manata yaxındır.

Nizamnamə kapitalı 250 manat olan bu MMC-nin qanuni təmsilçisi Aqil Mirzəyevdir.

Ən ilginc məqam isə ondan ibarətdir ki, "Referans Klinik Laboratoriya və Poliklinika Mərkəzi" bir neçə dəfə də vergi hesabatını vaxtında təqdim etmədiyinə görə maliyyə sanksiyası ilə üzləşib.

Onu da deyək ki, Bakının məşhur klinikalarından olan "Referans Klinik Laboratoriya və Poliklinika Mərkəzi" 2016-cı ildən etibarən laborator, 2018-ci ildən isə poliklinik xidmətlər üzrə fəaliyyət göstərir.

Bir neçə ay öncə isə "Atlas Medical Center" MMC-nin də yığılmış vergi borcunu ödəyə bilmədiyi açıqlanmışdı. Bu barədə ölkə mətbuatı Dövlət Vergi Xidmətinin kommersiya təşkilatlarının vergi borcları ilə bağlı reyestrinə istinadən xəbər verirdi. Məlumata görə, özəl klinikanın hazırda yığılmış vergi borcu 80 min manatı ötüb.

İqtisadiyyat.az-ın yazdığına görə, ötən ilin iyul ayında tibb müəssisəsinin vergi borcu 60 min manata çatmışdı. Paralel olaraq, MMC hər gün artan vergi borcunun müəyyən hissəsini ödəyə bilib.

Nəticə etibarilə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsi bir müddət əvvəl "Atlas Medical Center"



MMC-ni vergi məsələlərinə görə məhkəməyə verib. Klinika məhkəmə çəkişməsi müddətində vergi borcunun 100 min manatlıq hissəsini ödəməyə məcbur edilib.

Onu da bildirək ki, Vergi Məcəlləsinə görə, vergi borcunun gecikdirilməsinə görə sanksiyalar nəzərdə tutulub.

Xatırladaq ki, illər öncə Səhiyyə Nazirliyinin bu klinikada apardığı yoxlamalar zamanı nöqsanlar aşkarlanmışdı. Həmin nöqsanlar klinikanın lisenziyadan kənar qanunsuz ginekoloji və doğuşayardım xidmətləri göstərməsindən ibarət olub. Buna görə də özəl tibb müəssisəsinin fəaliyyətinin dayandırılması barədə qərar verilmişdi. Lakin nöqsanları aradan qaldıran klinikaya fəaliyyətini bərpa etməyə şərait yaradılıb.

Buna baxmayaraq, ötən il klinikada yenidən nöqsanlar aşkarlanıb. Cari ilin aprel ayının əvvəlində açıqlanan rəsmi məlumata görə, "Atlas Medical Center"ə qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə cərimə yazılıb.

Son zamanlar vergi borcu olan özəl klinikaların siyahısı yuxarıda adları çəkilənlərlə kifayətlənmir. Araşdırmalarımız göstərir ki, bu qeyri-dövlət siyahısını bəs deyincə uzatmaq olar. Ən əsası isə...

### ...özəl klinikaların qarınağrısı var: vergi ödəmək!

Məsələn, 2023-cü illərin sonlarında bir sıra özəl klinikaların İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə vergi borcu barədə konkret faktlar ortaya çıxmışdı.

Həmin vaxt yayılan məlumata görə, qanuni təmsilçisi Sərdar Seyidov Ağamir oğlu olan, Çobanzadə küçəsi 24/05 ünvanında yerləşən "Nigar" klinikasının Bakı şəhəri Lokal Gəlirlər Baş İdarəsinə 51236.77 manat vergi borcu var.

Dövlət Vergi Xidmətinə borcu olan digər tanınmış özəl klinikalar isə aşağıdakılar idi:

* "Hi-fi Stomatologi Klinika" MMC - 19617.89 manat

* "Loğman Klinikası" MMC - 2628.48 manat

* "Hind Klinikası" MMC - 5641.44 manat

* "El Amor Estetik Klinika" MMC - 2230.80 manat

* "Lb Clinic" MMC - 6513.13 manat

* "Modern Clinic Chen" MMC - 1692.87 manat

* "Caspian Medical"MMC - 7484.37 manat və s.

Bütün bu faktlardan gələnən nəticə ondan ibarətdir ki, özəl tibb müəssisələri...

### ...camaatın cibini soyurlar, vergi ödəməyə can çəkirlər!

Bir az da dəqiqləşdirək.

"Unikal"ın araşdırması nəticəsində məlum olub ki, Bakıdakı özəl klinikalarda 2025-ci ilin yanvarından etibarən ən ucuz həkim qəbulu 60 manatdan başlayır. Bu klinikaların əksəriyyətində isə ən ucuz qəbullar 80-120 manat arasında dəyişir, bir çoxlarında isə həmin məbləğ 150-300 manatdır.

Bahalaşma müayinə qiymətlərinə də aiddir. Özəl klinikalarda hazırda analiz qiymətləri 100-150 manatdan aşağı deyil. Bir sıra qeyri-dövlət tibb müəssisələrində sözügedən məbləğ azı 150-200 manatdan start götürür. İş o yerə çatıb ki, bu klinikalarda normal "Check up" qiymətləri sadə vətəndaşların çoxu üçün əlçatmazdır.

Cərrahi əməliyyatlarla bağlı qiymətlər də "ceyran belindədir". Məsələn, 2-3 il əvvələdək 500-1500 manat arasında dəyişən müxtəlif əməliyyatlar (qeysəriyyə, burun-boğaz və s.) indi ən yaxşı halda 1200-1500 manatdan başlayır.

Hələ bir müddət öncə Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirmişdi ki, özəl klinikalarda qiymətləri bazar iqtisadiyyatının tələbləri müəyyənləşdirsə də, bu tibb müəssisələri vergidən yayınırlar. Sitat: "Bizə gələn şikayətlərin analizi onu göstərir ki, özəl klinikaların 90 faizində istehlakçılardan alınan pulun müqabilində normal kassa qəbzi verilmir. Yəni üzərində VÖEN olmayan qəbz verilir. Nəticədə özəl klinikalar böyük məbləğdə vergidən yayınırlar".

Ekspertlə razılaşmamaq mümkün deyil. İstər müayinələr, istərsə də müalicələr üçün özəl klinikaların müəyyənləşdirdiyi qiymətlər Azərbaycan reallığında fantastik təsir bağışlayır. Lakin sonda məlum olur ki, belə bahalı xidmətlərə baxmayaraq əksər özəl tibb müəssisələri borc bataqlığında çabalayırlar?

Nəzərə alsaq ki, bu klinikaların çoxu istər indiki, istərsə də sabiq məmurların birbaşa nəzarətində, ya da dolayı yolla himayəsindədir, onda hər şey bütün çılpaqlığı ilə ortaya çıxır: vətəndaşın sağlamlığını "qaz vurub qazan doldurmaq" üçün vasitəyə çevirənlər növbə dövlətin xəzinəsinə ödənilməsi gərəkən vəsaitə gələndə buna "can çəkirlər". Bir az da obrazlı desək, sadə insanları sağaltmaq üçün fantastik müayinə və müalicə qiymətləri qoyanların vergi borcunu ödəmək lazım gələrkən özləri "xəstələnirlər".

Aydın görünür ki, əslində belə klinikaların aidiyyatı qurumlar tərəfindən ciddi "müayinə və müalicəyə" ehtiyacı var; əks halda çoxu səhiyyə sektoruna yarmarka, bazar kimi yanaşan qeyri-dövlət tibb müəssisələri xalqın sağlamlığı üçün başlıca təhdid və təhlükə mənbəyi olacaqlar!

**Sənan Mizə**

# Taksi sürücülərinin sağlamlıq müayinəsi necə aparılır? - Ekspert rəyləri

***Hər gün minlərlə insan taksilərdən istifadə edir. Taksi sürücüsünün psixoloji və fiziki vəziyyətinin yaxşı olması isə əsas şərtlərdən biridir. Çünki bir anlıq diqqətsizlik və ya emosional vəziyyətin yaxşı olmaması həm sürücünün, həm də sərnişinlərin həyatını təhlükəyə ata bilər.***

Bu səbəbdən, taksi sürücülərinin psixoloji və narkoloji testlərdən keçirilməsi insanların təhlükəsizliyi baxımından çox vacibdir.

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinin mətbuat katibi Tural Orucov bildirib ki, taksi fəaliyyəti göstərmək üçün hüquqi şəxslər və ya fərdi sahibkarlar buraxılış vəsiqəsi və buraxılış kartına müraciət etdikdə tələb olunan sənədlərdən biri də reysqabağı tibbi müayinə müqaviləsidir.

T.Orucov qeyd edib ki, sürücünün narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələr və psixotrop maddələrdən istifadənin müəyyən edilməsi üçün aparılan tibbi müayinənin nəticəsi barədə məlumatlar mütləq qaydada təqdim etməlidir: "Qeyd olunan sənədlər olmadığı təqdirdə daşıyıcılar icazə üçün müraciət edə bilmirlər".

AYNA sözçüsü nəzərə çatdırıb ki, avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcılar sürücülərin reysqabağı tibbi müayinədən keçirməsini təmin etməlidirlər. "Hüquqi şəxslər və ya fərdi sahibkarlar sürcülərin tibbi müayinəsi üçün tibb müəssisələri ilə müvafiq qaydada müqavilə imzalayaraq fəaliyyət göstərir. Qeyd olunan şərait bəzi daşıyıcılar tərəfindən parklarda da yaradılır",- deyə Tural Orucov qeyd edib.

Mövzu ilə bağlı Bakıvaxtı.az-a açıqlama verən psixoloq Elnur Rüstəmov bildirib ki, müasir şəhər həyatında nəqliyyatın əsas hissəsini təşkil edən taksi xidməti, gündəlik olaraq minlərlə insanın həyatına birbaşa təsir edir. Bu baxımdan da taksi sürücülərinin yalnız texniki və sürücülük bacarıqları deyil, eyni zamanda psixoloji hazırlığı da ön planda olması vacibdir.

E.Rüstəmovun sözlərinə görə, taksi sürücülərinin psixoloji testdən keçməsi bir nəzarət mexanizmi olmaqla yanaşı, həm sərnişinlərin təhlükəsizliyini, həm də sürücünün özünün sağlamlığını qoruyan önəmli vasitədir:

"Gündəlik uzunmüddətli sükan arxasında qalmaq, yol stresinə məruz qalmaq, müxtəlif xarakterli sərnişinlərlə ünsiyyət, bütün bunlar sürücünün emosional və psixoloji durumuna təsirsiz ötüşmür. Əgər bu hallar nəzarətsiz qalarsa, zamanla sürücüdə aqressiv davranış meylləri, diqqət pozuntuları, qərarvermə zamanı çətinliyi, idarəetmə zamanı təhlükəli reaksiyalar müşahidə oluna bilər".

Psixoloq qeyd edib ki, peşəkar psixoloji testlər sürücülərdə stresə davamlılıq və gərginliklə mübarizə bacarığı, emosional stabillik, aqressiv və impulsiv davranış riskləri, yüksək konsentrasiya və diqqət davamlılığı, empati və ünsiyyət bacarıqlarını müəyyənləşdirməyə imkan verir.

Onun sözlərinə görə, bu göstəricilər işə qəbul zamanı ilkin mərhələdə, eləcə də mütəmadi olaraq təkrar yoxlanılmalıdır. Psixoloq söyləyib ki, sürücülərin psixoloji durumu kəskin dəyişikliklərə məruz qala biləcək bir mühitdə fəaliyyət göstərdiyindən, bu qiymətləndirmələr davamlı xarakter daşımalıdır.

E.Rüstəmov izah edib ki, sükan arxasında olan şəxs, eyni zamanda insan taleyi daşıyır. Onun bir anda qərar vermə süræti, reaksiyası, davranışı bir və ya bir neçə insanın həyatını dəyişə bilər. Təhlükəsiz və etibarlı taksi xidməti üçün psixoloji sağlamlıq ən az texniki baxış qədər önəmlidir:

"Artıq bir sıra Avropa ölkələrində və inkişaf etmiş dövlətlərdə taksi sürücülərinin psixoloji testlərdən keçməsi qanunla tənzimlənir. Xüsusilə ictimai nəqliyyat və taksi xidməti göstərən şəxslər üçün bu testlər vacib şərtlərdən biridir. Nəticədə bu ölkələrdə sərnişinlərin təhlükəsizlik göstəriciləri və xidmət keyfiyyəti əhəmiyyətli dərəcədə yüksəlib".

Həmsöhbətimiz hesab edir ki, biz də ölkə olaraq bu sahədə qanunvericilik təşəbbüsləri və idarəetmə mexanizmləri formalaşdırmalı, psixoloji testlər nəqliyyat şirkətləri tərəfindən rəsmi olaraq tətbiq olunmalı və yalnız mütəxəssis psixoloqlar tərəfindən aparılmalıdır. Bildirib ki, bu həm vətəndaşlarımızın təhlükəsizliyinə, həm də sürücülərin psixoloji rifahına xidmət edəcək: "Əgər bu sahədə xüsusi bir layihə, maarifləndirmə kampaniyası və ya ictimai dinləmə olarsa, Psixologiya Elmi Tədqiqat İnstitutu olaraq bu prosesdə dəstək verməyə və elmi əsaslandırılmış tövsiyələrlə iştirak etməyə hazırıq".

Məsələ ilə bağlı Bakıvaxtı.az-a danışan hüquqşünas Paşa Səfərov söyləyib ki, taksi sürücülərinin psixoloji və narkoloji testdən keçməsi olduqca vacibdir ki, bu sahədə, həm "Avtomobil nəqliyyatı haqqında", həm də "Lisenziyalar və icazələr haqqında" qanunlara əsasən müvafiq müddəalar mövcuddur.

P.Səfərov nəzərə çatdırıb ki, həmçinin, Nazirlər Kabinetinin 24 aprel 2019-cu il tarixli 71 saylı qərarında avtomobil nəqliyyatı ilə sərnişin və yük daşımalarını yerinə yetirən daşıyıcıların, mülkiyyət və ya icarəyə götürülən nəqliyyat vasitələrinin texniki vəziyyətinin reysdən əvvəl yoxlanılması və sürücülərin reys qabağı tibbi müayinədən keçirilməsi ilə bağlı prinsiplər nəzərdə tutulub.

Buna baxmayaraq, bəzi arzuolunmaz faktların hələ də aşkarlandığını deyən hüquqşünas əlavə edib ki, İnzibati Xətalar Məcəlləsində də müvafiq maddələr var, xüsusilə 133-cü maddədə, bu maddədə nəqliyyat vasitələrinin alkoqol istifadəsi ilə idarə olunması məsələsi ilə bağlı inzibati tənbeh tədbirləri nəzərdə tutulub: "Mənim fikrimcə, bu tədbirlərin sərtləşdirilməsi zəruridir. Eyni zamanda, bu tədbirlərin effektivliyi və nəzarət gücləndirilməlidir ki, tətbiq edilən qərarlar daha doğru və təsirli olsun".




Milli Məclisin deputatı Razi Nurullayev açıqlamasında qeyd edib ki, taksi xidməti və taksi sürücülərinin işə götürülməsi ilə bağlı mövcud qanunvericilik aktları kifayət qədər sərtdir.Onun sözlərinə görə, bu sahədə ciddi nəzarət həyata keçirilir və taksi sürücüləri, eləcə də avtobus sürücüləri təlimlərə cəlb olunublar. Onlara vətəndaşlarla davranış qaydaları, etika, estetika və digər yeni mədəni davranış qaydalarının öyrədildiyini söyləyən R.Nurullayev əlavə edib ki, sürücülərin xasiyyətləri və onlara xas olan keyfiyyətlərin nələr olması barədə də təlimlər verilib.

Deputat onu da nəzərə çatdırıb ki, sürücülər narkoloji testdən keçir və psixoloji sağlamlıqları ilə bağlı arayış təqdim edirlər: "Ola bilsin ki, bəzi şəxslər sağlamlıq arayışlarını qanunsuz yollarla əldə edirlər, amma bu, artıq ayrı bir məsələdir. Mənim bildiyimə görə, əvvəllər mövcud olan problemlər demək olar ki, xeyli həll olunub".

Müsahibimiz vurğulayıb ki, əgər hələ də şikayətlər varsa, bu məsələlərlə bağlı aidiyyəti üzrə müraciət edərək, məsələnin aydınlaşdırılması mümkündür.

"Artıq qanunvericilik bu sahədə yerindədir və tətbiq olunmaqdadır. Taksi xidmətində də müsbət irəliləyişlər əldə olunub. Əgər problemlər hələ də qalırsa, bu məsələləri işçi qaydada müzakirə edib, müəyyən dəyişikliklərə getmək mümkündür. Lakin konkret olaraq, bununla bağlı faktlar ortada olmalıdır",- deyə deputat bildirib.

Nəqliyyat məsələləri üzrə ekspert Aslan Əsədov isə bildirib ki, taksi sürücülərinin psixoloji testdən keçməsi, doğru addımlardan biridir. A.Əsədov nəzərə çatdırıb ki, birinci növbədə taksi sürücülərinin sayı ilə paralel olaraq onlara aid olan nəqliyyat vasitələrinin çeşidlənməsi vacibdir. Onun sözlərinə görə, nəqliyyat vasitələrinin sayı artırılmalıdır. Ekspert bildirib ki, yalnız bundan sonra sürücülərin keyfiyyətini və psixoloji vəziyyətini nəzərdən keçirə bilərik. A.Əsədov izah edib ki, hazırda kifayət qədər taksi və avtomobil yoxdur: "Bununla yanaşı, problemləri həll etmək üçün ən vacib addım müasir və yeni avtomobillərin gətirilməsidir. Bu addım, növbəti mərhələdə isə taksi istifadəçilərinin sürücülərin keyfiyyət və kəmiyyət xüsusiyyətlərini araşdırmağa imkan verəcək".



## Nazir Adil Kərimli Bakıda qətərli həmkarı ilə görüşüb

***Aprelin 10-da Azərbaycan Respublikasının mədəniyyət naziri Adil Kərimli ilə Qətər Dövlətinin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Həməd əl-Tani arasında ikitərəfli görüş keçirilib. Qeyd edək ki, 10-13 aprel tarixlərində Bakıda Qətər Mədəniyyəti Günləri keçirilir.***

"Unikal" xəbər verir ki, bu münasibətlə dost ölkənin mədəniyyət nazirinin rəhbərliyi ilə geniş nümayəndə heyəti Azərbaycanda səfərdədir.

Qətərli həmkarını səmimi salamlayan nazir Adil Kərimli əlamətdar mədəniyyət hadisəsi münasibətilə təbriklərini çatdırıb. Bildirib ki, Azərbaycan Respublikası ilə Qətər Dövləti arasında əlaqələr iki ölkə rəhbərlərinin qarşılıqlı etimada əsaslanan dostluq münasibətləri əsasında hərtərəfli inkişaf edir. Ölkələrimiz arasında həm ikitərəfli, həm də çoxtərəfli platformalar çərçivəsində uğurlu əməkdaşlıq qurulub.

Nazir burğulanıb ki, xalqlarımızı yaxınlaşdıran həm də mədəni zənginliklərimizdir. 2024-cü ilin fevral ayında Qətərin paytaxtı Dohada təşkil olunan Azərbaycan Mədəniyyəti Günləri mədəniyyətimizin təntənəli təqdimatı ilə yadda qalıb. "Qətər Dövləti də Azərbaycanda təşkil olunan müxtəlif səpkili beynəlxalq tədbirlərdə yaxından iştirak edir. İnanıram ki, Bakıda keçirilən Qətər Mədəniyyəti Günləri iki ölkə arasında mədəni əlaqələrin inkişafına mühüm töhfə olacaq", - deyə Adil Kərimli əlavə edib.

Qətərin mədəniyyət naziri Şeyx Əbdülrəhman bin Həməd əl-Tani səmimi qəbula görə Adil Kərimliyə təşəkkürünü bildirib. O, Qətər nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə Azərbaycan tərəfinə minnətdarlıq edib. Qətərli nazir 16 ildən sonra ölkəsinin mədəniyyətinin Azərbaycanda yenidən təqdim olunmasından məmnunluğunu bildirib, bu kimi tədbirlərin mədəni inteqrasiya üçün zəruri olduğunu vurğulayıb.

Söhbət zamanı iki ölkə arasında mədəniyyətin müxtəlif sahələri üzrə əməkdaşlığın perspektifləri müzakirə olunub. Sonda xatirə şəkilləri çəkdirilib.

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:32 PM Page 5



# Donald Tramp İlham Əliyevə məktub göndərdi



***Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

"Unikal" xəbər verir ki, təbrik məktubunda deyilir:

"Hörmətli cənab Prezident. Birləşmiş Ştatlar adından Sizi və Azərbaycan xalqını gözəl Novruz bayramı münasibətilə təbrik edirəm. Novruz hamı üçün sülh, çiçəklənmə və yenilənmə bayramıdır.

Ölkələrimiz birgə işləmək sahəsində zəngin tarixə malikdir və mən qarşıdan gələn illərdə əldə edə biləcəyimiz möhtəşəm məqamları səbirsizliklə gözləyirəm. Azərbaycanın tərəfdaşımız İsrailə dəstəyini və onunla dostluğunu dəyərləndirir, ölkənizin və Ermənistanın regiona sülh gətirmək üçün atdığı addımları alqışlayıram.

Ölkələrimiz uğurlara doğru sürətlə irəlilədikcə Sizinlə işləməyi səbirsizliklə gözləyirəm. Birləşmiş Ştatlar Azərbaycanın suverenliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün sarsılmaz dəstəkçisi olaraq qalır".

# İndoneziyanın vitse-prezidenti Mehriban Əliyevanı təbrik edib

***İndoneziya Respublikasının vitse-prezidenti Gibran Rakabuminq Rakadan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanı təbrik edib.***

"Unikal" xəbər verir ki, təbrikdə deyilir:

"Müqəddəs Ramazan bayramı münasibətilə Sizi təbrik edirəm.Sizə xoşbəxtlik və rifah arzulayıram.

Bayramınız mübarək!"

# Ceyhun Bayramov gürcü və erməni həmkarları ilə görüşəcək



***Azərbaycan, Gürcüstan və Ermənistanın xarici işlər nazirləri - Ceyhun Bayramov, Maka Boçorişvili və Ararat Mirzoyan "Cənubi Qafqazda regional əməkdaşlıq üçün çağırışlar və imkanlar" adlı müzakirədə iştirak edəcəklər.***

"Unikal" xəbər verir ki, tədbir bu şənbə Antalyada keçiriləcək diplomatik forum çərçivəsində baş tutacaq.

Görüşdə regionda cari hadisələr, əməkdaşlıq perspektivləri və mövcud manevələrin müzakirə ediləcəyi gözlənilir.

# Əli Əsədov Moldova Baş nazirinin müavini ilə görüşüb

***Aprelin 10-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ölkəmizdə səfərdə olan Moldova Respublikası Baş nazirinin müavini, infrastruktur və regional inkişaf naziri Vladimir Bolea ilə görüşüb.***



"Unikal" xəbər verir ki, görüşdə Azərbaycan-Moldova dostluq və əməkdaşlıq münasibətlərinin inkişafından məmnunluq ifadə olundu.

Bakıda keçiriləcək Azərbaycan Respublikası və Moldova Respublikası arasında İqtisadi Əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 6-cı iclasının iki ölkə arasında qarşılıqlı faydalı əlaqələrin genişləndirilməsi baxımından əhəmiyyəti vurğulandı.

Ticarət, investisiyalar, neft-qaz, yaşıl enerji, nəqliyyat, kənd təsərrüfatı, humanitar və bir çox digər sahələrdə ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə edildi.

Görüşdə Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri, Birgə Hökumətlərarası Komissiyanın həmsədri Məcnun Məmmədov iştirak edib.

# Elçin Əmirbəyov "İsveç Radiosu"na Qərbi Azərbaycandan danışdı

***"İsveç Radiosu"nun müxbiri Johanna Melen Azərbaycan-Ermənistan münasibətləri ilə bağlı podkast hazırlayıb.***

"Unikal" xəbər verir ki, "danışıqlara baxmayaraq, bir çoxları Ermənistanla Azərbaycan arasında sülhə şübhə edirlər" başlıqlı podkastda Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyovun fikirlərinə də yer verilib.

Elçin Əmirbəyov qeyd edib ki, erməni tərəfi sülhün bərqərar olması üçün yaranmış imkandan faydalanmalıdır. Diplomat həmçinin Qərbi Azərbaycandan da bəhs edərkən bildirib ki, Azərbaycan bu ifadəni dedikdə Ermənistan torpaqlarını nəzərdə tutmur, azərbaycanlıların yaşadığı tarixi Azərbaycan torpaqlarından bəhs edir.

Prezidentin xüsusi nümayəndəsi Azərbaycan və Ermənistan arasında normallaşma prosesindən bəhs edib, iki ölkə arasında sülh müqaviləsinin imzalanması üçün Azərbaycana qarşı ərazi iddialarının əks olunduğu Ermənistan Konstitusiyasına dəyişiklik edilməsinin vacibliyini önə çəkib.



E.Əmirbəyov hazırkı durumda Emənistanın əsl niyyəti ilə bağlı ciddi sualların qaldığını, Azərbaycanda bu ölkəyə qarşı inamsızlığın əsaslı olduğunu qeyd edib.

O, habelə sülh prosesi kontekstində Ermənistandan qovulmuş çox sayda azərbaycanlının hüquqları məsələsini də qabardıb.

***Ağarza Elçinoğlu***

# "Son zəng"lə bağlı təlimat verilməsi xəbərinə rəsmi açıqlama

***Ümumi təhsil müəssisələrinə 2024-2025-ci tədris ilinin "Son zəng" tədbirlərinin keçirilməsini tənzimləyəcək təlimatın göndərilməsi ilə bağlı yayılan məlumatlar həqiqəti əks etdirmir.***

Bu barədə "Unikal"a MÜTDA-dan məlumat verilib. "Agentlik tərəfindən yerli təhsilin idarəetmə bölmələrinə, yəni regional təhsil idarələrinə "Son zəng"lə bağlı hər hansı təlimat göndərilməyib", - məlumatda qeyd olunub.

Qeyd edək ki, ümumi təhsil müəssisələrinə "Son zəng" tədbirlərinin keçirilməsi qaydalarını tənzimləyən müvafiq təlimat göndərildiyi haqda xəbərlər yayılıb. Xəbərlərə əsasən, təlimatda qeyd olunub ki, bu il keçiriləcək "Son zəng" tədbirində məzunlar da daxil olmaqla bütün şagirdlər məktəbli formasında olmalı, səsləndirilən musiqilərin seçiminə ciddi nəzarət edilməli, bayağı musiqilərin səsləndirilməsinə yol verilməməli, məzunlar yalnız Azərbaycan milli rəqslərini ifa etməlidirlər.

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Hərbi polisin yaranmasının 33-cü ildönümü qeyd olundu

***Aprelin 10-da Müdafiə Nazirliyinin hərbi polisinin yaranmasının 33-cü ildönümü münasibətilə Hərbi Polis İdarəsində tədbir keçirilib.***

"Unikal" xəbər verir ki, bu barədə MN-dən bildirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin idarənin ərazisində ucaldılmış büstü ziyarət olunub. Daha sonra idarədə davam etdirilən tədbirdə Ulu Öndərin, eləcə də Vətənimizin



müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun təbriki şəxsi heyətə çatdırılıb.

Tədbirdə çıxış edən Daxili Təhlükəsizlik və Təhqiqat Baş İdarəsinin rəisi general-mayor Azər İbrahimov hərbi polis bölmələrinin xüsusilə azad edilmiş ərazilərdəki yaşayış məntəqələri və qoşunların dislokasiya yerlərində xidməti fəaliyyətinin Müdafiə Nazirliyinin rəhbərliyi tərəfindən müsbət qiymətləndirildiyini qeyd edib. Baş İdarə rəisi hərbi qulluqçulara gələcək xidmətlərində uğurlar arzulayıb.

Tədbir iştirakçılarına hərbi polisin yaranma tarixi və fəaliyyətlərindən bəhs edən videoçarx nümayiş etdirilib.

Sonda komendant və qoşun xidmətinin təşkilində fərqlənən bir qrup hərbi qulluqçu təltif olunub.

# ADA forumu anti-Azərbaycan və anti-türk siyasətinə qarşı mühüm mesajdır

## Millət vəkili: “Azərbaycan Prezidentinin Şimali Kipr haqda fikirlərindəki prinsipiallıq və təəssübkeşliyi görməmək mümkünsüzdür”

***“Azərbaycan Prezidenti cənab İlham Əliyev tarixə təkcə əksər yırtıcı güclərin qarşı çıxmalarına rəğmən ölkəsinin işğal altındakı torpaqlarını geri qaytarmağı bacarmış, neçə əsr idi ki, üzərində suverenliyini təhdid edənlərdən Qarabağı tam qurtarmış bir lider kimi düşməyəcək. Türk dövlətlərinin bir araya gəlmələrində, TDT-nin güc mərkəzlərindən birinə çevrilməsində fədakarlıq, fövqəladə təşəbbüskarlıq, prinsipiallıq, təəssübkeşlik və qətiyyət göstərmiş böyük şəxsiyyət olaraq da ondan ayrıca bəhs ediləcək”.***

“Unikal” xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı Sahib Alıyev səsləndirib. O bildirib ki, ADA Universitetində keçirilən ”Yeni dünya nizamına doğru” mövzusunda beynəlxalq forumda Azərbaycan Prezidentinin Şimali Kipr haqda fikirlərində də bir çoxlarına örnək olmalı bu prinsipiallıq və təəssübkeşliyi görməmək mümkünsüzdü: “Cənab Prezident çox doğru olaraq vurğuladı ki, BMT-nin Baş katibinin keçirdiyi referendumda türk Kipri birləşməyə, yunan Kipri isə bunun əleyhinə səs verdiyi halda ikincini Avropa Birliyinə üzvülüyə qəbul edilərək, birincinin bu haqqı tanınmamışdı. İndi də onlar bəzi dövlətləri yunan Kipri ilə sıx əlaqələr qurmağa çağırdıqları, onları hətta buna sövq etdikləri halda Şimali Kipri təcriddə saxlamağa çalışırlar. Ancaq digərləri bir yana, təəssüf ki, onlarla eyni soydan olanların da çoxu bizim torpaqlarımızın uzun illər işğal altında qalmasına ”dözümlü” yanaşdıqları kimi bu ədalətsizliyi də görməzdən gəlirlər. Niyəsini dövlət başçımız açıqladı: ”Yəni, onlar başlarını ağrıtmaq istəmirlər və bu haqda danışsalar, onlara başağrıdan başqa da problemlər yarana bilər”. Cənab İlham Əliyevin təbirincə desək, ”Cənubi Qafqazı özlərinin sevimli və ya qeyri-sevimli dövlətlərinə bölən” Brüsseldəkilər nə düşünür-düşünsünlər, səlibçi zehniyyətlilər necə yanaşır-yanaşsınlar, Prezidentimiz beynəlxalq ekspertlər qarşısında Şimali Kiprdəki qardaşlarımızı əmin etdi ki, ölkələrinin müstəqil dövlət kimi tanınması üçün Azərbaycan əlindən gələni əsirgəməyəcək. Orasını da deyim ki, dövlət başçımızın sözü gedən açıqlaması anında Türkiyə və Şimali Kipr mediasında əsas xəbərlərdən birinə çevrildi ki, bu da tam təbiidir”.

Deputat hesab edir ki, ADA Universitetində ”Yeni dünya nizamına doğru” mövzusunda keçirilən beynəlxalq forumda Azərbaycan Prezident cənab İlham Əliyevin Ermənistan haqqında dediyi bu fikirlər vergül və nöqtəsinə qədər dəqiqdir: ”Biz Ermənistanda kifayət qədər güclü revanşist qrupların olduğunu bilirik. Mən onları iki qrupa bölərdim: 30 illik işğala görə məsuliyyət daşıyan fəal revanşistlər və guya konstruktiv yanaşma sərgiləməyə cəhd göstərən, lakin, əslində, eyni revanş və intiqam hissi ilə yaşayan bugünkü hökumət olan passiv revanşistlər. Onların ölümcül silahları almasının səbəbi də budur. ...Ermənistanın siyasi isteblişmenti Azərbaycan məsələsində parçalanmayıb. Onlar konsolidasiyalı mövqeyə malikdirlər. Bu, sadəcə, terminologiya, davranış və taktikadan asılı olan bir məsələdir. Beləliklə, biz buna hazır olmalıyıq, həm hərbi nöqteyi-nəzərdən, həm də siyasi nöqteyi-nəzərdən.

...Biz təkcə diasporda, Fransa və Amerika Birləşmiş Ştatlarında yox, Ermənistan hökumətində və bütün siyasi dairələrdə hələ də dövriyyə edən “böyük Ermənistan” xəyallarını unutmamalıyıq. Qarabağın yenidən geri alınmasını xəyal etməyən bir erməni siyasətçisini demək olar ki, tapa bilməzsiniz. Bu, reallıqdır. Biz bu reallığı müxtəlif informasiya mənbələrindən bilirik və biz bununla yaşamalıyıq”.

Ermənilərin, hayların, eləcə də oradakı digər etnosların maraqlarına qətiyyən cavab verməyən, Ermənistan üçün fəlakətdən başqa yaxşı heç nə vəd etməyən belə bir vəziyyətin niyə mövcud olmasının isə bir səbəbi var. Qonşu ölkədəki bütün siyasi partiyalar, qruplaşmalar bu regionda sülhdənsə konfliktin qalıb idarə edilməsində maraqlı olan böyük dövlətlərə bağlıdırlar, onların əksər hissəsi ilk baxışda guya milli təəssübkeş təsiri bağışlasalar da, hamısı birmənalı şəkildə həmən dövlətlərin istək və təlimatlarına uyğun davranırlar. Yeni Ermənistanda hay və özəlliklə də erməni marağından çıxış edən demək olar ki, heç bir siyasətçi yoxdur, onların hamısı bizdə adını ”Milli Şura” qoyan yığnağın başında duranlara bənzəyirlər”.

S.Alıyevin qənaətincə, Türk Dövlətləri Təşkilatının güclənməsində təkcə körpü deyil, həm də təşəbbüskar və təəssübkeş dövlət olaraq Azərbaycanın oynadığı mühüm rol danılmazdır. Onun sözlərinə görə, Azərbaycan Prezidenti cənab İlham Əliyev bu birliklə bağlı öz baxışlarını açıqladı: “Ümid edtmək istərdim ki, qardaş dövlətlərin başçıları Azərbaycan Prezidentinin TDT-nin qlobal güc mərkəzinə çevrilməsi üçün böyük potensialının olması haqda fikirlərini bölüşməklə yanaşı bunun reallaşdırılması yönündə onun kimi səylərini əsirgəməyəcək, yaranmış fürsəti düzgün dəyərləndirməkdə ləngiməyəcəklər: Təşkilat etnik köklərə əsaslanır. Bir çox təşkilatları tanıyırıq. Onlarla müqayisə etmək istəmirəm. Lakin Türk Dövlətləri Təşkilatının unikallığı onun etnik mənşəyə, ümumi köklərə, ənənələrə, ümumi dəyərlərə əsaslanmasıdır. Biz həmin dəyərlərlə bölüşürük. Yenə də müqayisə etməmək çətindir. Üzrlü hesab edin, lakin bunu edəcəyəm. Əgər Avropa İttifaqına baxsanız, tamamilə fərqli dəyərləri olan ölkələri görəcəksiniz. Həmin ölkələrin xalqları bir-birindən tam şəkildə fərqlənir. Əgər Cənubu və Şimalı götürsək və bəzi ölkələrdə siyasi hadisələrə baxsaq görərik ki, onlar bir-birindən tam fərqlənir. Hazırda biz Avropa İttifaqında dəyərlər, mədəniyyət, ənənələr, miqrantlar, tariflər və sairə məsələlərdə xeyli narazılıqlar görürük. Belə bir hal Türk Dövlətləri Təşkilatında varmı? Yox. Bizdə yoxdur. Bu, bizi unikal edir. Bəs onda nə çatışmır? Bizim güclü beynəlxalq fəaliyyətimiz. Bu, kifayət deyil və biz daha çox çıxış etməli, daha fəal olmalı və qlobal məsələlərdə öz sözümüzü deməliyik. Bu halda yenə də coğrafiya, əhali nəzərə alınmalıdır. Hələ hərbi imkanları buraya əlavə etsək, hər şey aydın olar. Yaxşı məlumdur ki, Türkiyə Ordusu Avropada ən güclü ordudur. Azərbaycan da öz hərbi imkanlarını nümayiş etdirdi. Beləliklə, bunları əlavə etsək, biz həqiqətən qlobal səviyyədə beynəlxalq fəaliyyətin mərkəzinə çevrilə bilərik. Xüsusən də bəzi təşkilatları, daxili mübahisələri, inamsızlığı və qarşılıqlı etimadın çatışmamasını görəndə hər bir şey aydın olur. Mən Avropa İttifaqını xatırlatdım. Mən, həmçinin NATO-nu qeyd edə bilərəm. Hamımız bilirik ki, hazırda NATO-nun bəzi üzv ölkələri 5-ci maddə haqqında düşünür. Bunun nəzərə alınacağı ehtimalına gəldikdə, NATO daxilində müəyyən inamsızlıq var və bu, qlobal səviyyədə hələ ən güclü beynəlxalq təşkilatlardan biridir. Buna görə biz daha fəal olmalıyıq. Bəlkə uyğun söz deyil, lakin biz boşluğu doldurmalıyıq, ən azı Avrasiyanın nəhəng sahəsində qərarların qəbul edilməsi mərkəzinə çevrilməliyik”.



***M.İbrahimli***



## Nursultan Nazarbayev İlham Əliyevi təbrik etdi

***Qazaxıstan Respublikasının birinci Prezidenti Nursultan Nazarbayev Prezident İlham Əliyevə təbrik məktubu ünvanlayıb.***

”Unikal” xəbər verir ki, təbrik məktubunda deyilir:

”Hörmətli İlham Heydər oğlu. Müqəddəs Ramazan bayramı münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm. Qoy Ramazan ayında görülmüş xeyirxah işlər və edilmiş dualar qəbul olunsun, bu bayram hər bir ailəyə xeyir-bərəkət gətirsin. Böyük Yaradanımız qəlblərimizi iman ruhu ilə işıqlandırsın, ölkələrimizə sülh, xalqlarımıza həmrəylik bəxş etsin.

Hörmətli İlham Heydər oğlu, yüksək dəyərləri aşılayan bu bayram münasibətilə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, qardaş Azərbaycan xalqına isə əmin-amanlıq və firavanlıq diləyirəm”.

## Netanyahunun ofisi İlham Əliyevə təşəkkür etdi

***İsrailin baş nazirinin ofisi Türkiyə nümayəndələri ilə Azərbaycanda aparılan danışıqları təsdiqləyən bəyanat yayıb.***



”Unikal” xəbər verir ki, bu barədə İsrailin Baş naziri Binyamin Netanyahunun ofisi məlumat yayıb.

Qeyd olunub ki, danışıqlara Milli Təhlükəsizlik Baş Qərargahının rəisi Tzachi Haneqbi rəhbərlik edib: ”Müdafiə Nazirliyi və təhlükəsizlik qurumlarının yüksək rütbəli nümayəndələrinin də iştirak etdiyi siyasi və təhlükəsizlik nümayəndə heyəti dünən axşam Türkiyə nümayəndə heyəti ilə görüşüb.

İsrail mühüm danışıqların təşkilinə görə Azərbaycana və Prezident İlham Əliyevə təşəkkür edir. Danışıqlar zamanı hər bir tərəf regionda öz maraqlarını təqdim edib və sabitliyi və təhlükəsizliyi qorumaq üçün dialoq yolunu davam etdirmək qərara alınıb”.

Qeyd edək ki, Türkiyə Milli Müdafiə Nazirliyi Türkiyə və İsrail nümayəndə heyətlərinin Azərbaycanda kritik görüş keçirdiyi barədə məlumat yaymışdı.

***Ağarza Elçinoğlu***

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:32 PM Page 7



## "Azərbaycanın Şimali Kiprdə səfirlik açacağı gün uzaqda deyil" - Elxan Şahinoğlu



***Mərkəzi Asiyanın türk dövlətlərini Kipr (yunan) Respublikasını rəsmən tanımağa, hətta orada səfirlik açmağa nə məcbur edib? Axı bu ölkələrin liderləri bilməliydilər ki, bununla həm Türkiyə ilə münasibətlərə, həm də özlərinin iştirakçısı olduğu Türk Dövlətləri Təşkilatının gələcək fəaliyyətinə zərər verəcəklər.***

"Unikal" xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu bildirib.

O qeyd edib ki, Mərkəzi Asiya ölkələri Kipr (yunan) Respublikasının ardınca Şimali Kipr Türk Respublikasının tanımağa qərar versəydilər, bunu strateji addım kimi qiymətləndirmək olardı: "Ancaq Mərkəzi Asiya ölkələrinin Şimali Kipri tanıyacaqlarına işarət edən heç nə yoxdur. Digər tərəfdən Mərkəzi Asiya ölkələrinin Kipr (yunan) Respublikası ilə eyni anda bağlar qurması həmin dövlətlərin bunu bir-birləriylə koordinasiyalı və planlı şəkildə həyata keçirdiyi görüntüsü yaradıb. Onların bu planından nə Ankaranın, nə də Bakının əvvəlcədən xəbəri olub",-o deyib.

Politoloq Qazaxıstanın qərarının məntiqini anlamaq məqsədilə illərdir tanıdığı və dostluq etdiyi qazax həmkarımla əlaqə saxladığını və ona suallar ünvanladığını deyib: "Statusdakı sualları ona ünvanladım. Qazax həmkarım Mərkəzi Asiya ölkələrinin bu qərarını aprelin 4-də Özbəkistanın Səmərqənd şəhərində Avropa İttifaqı rəhbərliyi ilə keçirilən sammiti ilə əlaqələndirdi. Onun fikrincə, Kipr (yunan) Respublikası ilə sıx əlaqələr Brüsselin istəklərindən biri olub. Avropa İttifaqı Mərkəzi Asiya dövlətlərinə milyardlarla avro yatırımlar və ortaq layihələrin reallaşmasını vəd edib. Ancaq Brüsselin bu "istəyinin" yerinə yetirilməsi türk ittifaqının maraqlarına uyğun deyil. Prezident İlham Əliyev aprelin 9-da ADA-nın təşkil etdiyi beynəlxalq tədbirdə Azərbaycanın Şimali Kiprlə əlaqələri bundan sonra da inkişaf etdirəcəyini bildirib.Kipr Prezidenti və ictimaiyyəti tərəfindən böyük məmnunluqla qarşılanan bu açıqlama Azərbaycan Prezidentinin Mərkəzi Asiya dövlətlərinin son qərarı ilə razılaşmadığı anlamına gəlir. Digər tərəfdən İlham Əliyev Avropa İttifaqı və Avropa Şurasından danışarkən, Azərbaycanın artıq bu qurumların qərarlarından asılı olmadığını vurğulayıb. Bunları əsas götürərək Azərbaycanın Mərkəzi Asiya ölkələrindən fərqli olaraq Şimali Kipr Türk Cümhuriyyətinin müstəqilliyini tanıyacağı və Lefkoşada səfirlik açacağı gün uzaqda deyil".

## Bu müəllimlər sertifikasiyada bir fəndən imtahan verəcəklər

***"İkili ixtisasa malik müəllim yalnız bir ixtisas üzrə sertifikatlaşdırmadan keçibsə, bu, onun növbəti beş il ərzində pedaqoji fəaliyyətini davam etdirməsinə imkan verir. Əsas meyar kimi müəllimin işə qəbul olunduğu ixtisas götürülür. Bu, eyni zamanda, qanunvericiliyin tələbidir".***

"Unikal" xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin şöbə müdir müavini Nurlan İsmayıllı deyib.

"Məsələn, fizika-riyaziyyat ixtisası üzrə çalışan bir müəllim ötən il riyaziyyat fənni üzrə sertifikatlaşdırmadan uğurla keçibsə, artıq bu il fizika fənni üzrə həmin prosesə cəlb olunmayacaq. Bu halda müəllim qarşıdakı beş il ərzində hər iki fənni tədris etmək hüququna malik olacaq", - o bildirib.

# "2025-ci ildə də manatın məzənnə stabilliyi qorunub saxlanmalıdır"

### Eldəniz Əmirov: "Azərbaycanda hökumət bir neçə ildir ki, manatın məzənnə stabilliyini qorumaq üçün bir çox ciddi addımlar atır, məqsəd də ölkədə makroiqtisadi tarazlığı qorumaqdır"

***İqtisadçı Eldəniz Əmirov "Unikal"a müsahibə verib. O, dünya bazarında neftin qiymətinin ucuzlaşmasından, bunun 2025-ci ilin dövlət büdcəsinə necə təsir edə biləcəyindən, neft qiymətindəki azalmanın dolların məzənnəsinə hansı təsirinin olacağından və ərzaq məhsullarının qiymətlərinin necə dəyişə biləcəyindən danışıb.***

***-Son günlər dünya bazarında neftin qiyməti azalır. Azərbaycan neftinin 1 barelinin qiyməti 3,54 ABŞ dolları azalaraq 64,11 ABŞ dolları təşkil edib. Neft qiymətinin hansı həddə qədər ucuzlaşacağı gözlənilir?***

-İlk növbədə qeyd edim ki, 2025-ci ilin dövlət büdcəsi hazırlanarkən neftin qiymətinin 70 dollardan götürülməsini ciddi risk hesab etdiyimi bildirmişdim. Bununla bağlı publik olaraq fikirlərimi ifadə etmişdim. Hazırda neftin qiymətinin büdcədə götürülən məbləğdən təxminən 5 dollar aşağı düşməsi hələ qorxulu məqamdır demək deyil. Ona görə ki, yola saldığımız 3 ay ərzində neftin qiyməti kifayət qədər büdcədəki həddən yuxarı səviyyədə olub. 70 dollar illik, 365 gün ərzində olan orta statistik göstərici olaraq nəzərdə tutulur. Nəzərə almalıyıq ki, qiymətin 80-ə yaxın olduğu göstəricilər var idi. Bu, son 100 günə yaxın vaxtı əhatə edir. Ona görə bu azalma rəqəmi ciddi risk deyil. Qiymət daha aşağı olarsa, ənənəvi enerji resurslarına ABŞ administrasiyasının aqressiv basqısı davam edərsə, o zaman müəyyən risklər yaranacaq. Lakin hazırkı vəziyyətin ciddi risk daşıdığını düşünmürəm.

***-Məlum olduğu kimi, builki dövlət büdcəsində bir barel neftin orta qiyməti 70 ABŞ dollarından hesablanıb. Hazırda isə Azərbaycan neftinin qiyməti büdcədə götürüləndən aşağı düşüb. Sizcə, bu azalma 2025-ci ilin dövlət büdcəsinə necə təsir göstərə bilər?***



-Hər ilin əvvəlində dövlət büdcəsində profisit yaranır. Bunun səbəbi isə sadədir. Gəlir daxil olur, xərclər isə daha az istifadə olunur. Çünki xərclərin daha çox ilin ikinci yarısına və sonuna doğru xərcləndiyini müşahidə edirik. Bu tək dövlət büdcəsində deyil, hətta ayrı-ayrı müəssisə və təşkilatların büdcələrinin idarəedilməsində belə prinsip var. Yəni, xərclər daha ehtiyatla sərf olunur. Mümkün qədər daha sonra icra olunur. Hesab edirəm ki, hazırda neftin qiymətində olan azalma ən azı ilin üçüncü rübünə qədər büdcənin icrası ilə bağlı hər hansı mənfi məqam yaratmayacaq.

***-Neftin satışından əldə olunan xarici valyuta mühüm əhəmiyyət kəsb edir. Bu azalma ölkəmizdə dolların məzənnəsinə necə təsir göstərəcək?***

-Azərbaycanda hökumət bir neçə ildir ki, manatın məzənnə stabilliyini qorumaq üçün bir çox ciddi addımlar atır. Məqsəd ölkədə makroiqtisadi tarazlığı qorumaqdır. Məhz bu tarazlığı qorumaq üçün hökumət 2025-ci ildə də manatın məzənnə stabilliyini qoruyub saxlamalıdır.

***-Ərzaq məhsullarının böyük hissəsi xaricdən idxal olunur. Bu, Azərbaycanda ərzaq məhsullarının qiymətinə necə təsir edəcək və bunun qarşısının alınması üçün hansı addımlar atılmalıdır?***

-Azərbaycan böyük həcmdə ərzaq məhsullarının idxalından asılıdır. İqtisadiyyatımızın idxaldan asılılığı çoxdur. Bu həm ərzaq, həm də qeyri-ərzaq məhsullarına aiddir. Hazırda neftin qiymətinin aşağı enməsi ərzaq məhsullarının qiymətinin artmasına xidmət etməyəcək. Neft qiymətlərinin artması enerji resurslarının bahalaşması deməkdir. Enerji resursları isə istər ərzaq, istərsə də qeyri-ərzaq məhsullarının istehsalında istifadə edilir və maya dəyərinin üzərinə oturur. Bu da məhsulun qiymətinin artmasına gətirib çıxarır. Deməli, enerji resurslarının qiymətinin aşağı düşməsi əksinə məhsulun maya dəyərini aşağı salır. Odur ki, hazırkı situasiyada bu amil idxal inflyasiyasını artırmır, əksinə nisbətən cilovlayır.

***Anar Kəlbiyev***

# Azərbaycan-İran sərhədində yeni avtomobil körpüsü bu tarixdə istifadəyə veriləcək

***Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev və İranın yol və şəhərsalma naziri Fərzanə Sadiq Ağbənd körpüsünə, Horadiz-Ağbənd dəmir yolu tikintisinə birgə baxış keçiriblər.***

"Unikal" xəbər verir ki, bu barədə Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib, səfər zamanı Ağbənd körpüsünün 2026-cı ilin əvvəllərində istifadəyə verilməsi və onun istismarının asanlaşdırılması istiqamətində planlar nəzərdən keçirilib.



"Qərara alınıb ki, sərhəd körpüsünün tikintisi bu ilin noyabr ayınadək başa çatdırılsın və açılışa hazır olsun. Eyni zamanda, İran ərazisində yerləşən sərhəd terminalının müvəqqəti istismarı üçün zəruri tədbirlərin görülməsi və terminalın 2026-cı ilə qədər tam istifadəyə verilməsi razılaşdırılıb. Bundan əlavə, bu ilin sonuna kimi həm yük, həm də minik avtomobillərin hərəkətinin bərpa olunması planlaşdırılır", - məlumatda deyilir.

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:32 PM Page 8



# Misir Mərdanovun “saxta diplom” yalanları...

## Həftənin replikası: sabiq iri məmurlar yaxın tarixi necə təhrif edirlər? - Onları dinləyən elə bilər ki, nə rüşvətdən xəbərləri var, nə korrupsiyadan!

***Son vaxtlar Azərbaycanın sabiq iri məmurlarının mediada açıqlamalarına tez-tez rast gəlirik. Vəzifədə olarkən mediaya bir cümləlik açıqlamanı çox görən “köhnə komanda” nümayəndələri indi birdən-birə (və nəyə görəsə!) mətbuata çox həssas olmağa başlayıblar. Ən əsası isə yüksək post tutarkən adları korrupsiya məzmunlu iddia və ittihamlarla, bir çox hallarda isə konkret faktlarla gündəmdən düşməyən bu sabiqlər indi elə danışırlar ki, sanki süddən çıxmış ağ qaşıqdırlar!***

Bu yaxınlarda öz açıqlamaları ilə ölkə gündəmini zəbt edən iş adamı İsfəndiyar Axundovun (“Şərurlu İsfəndiyar”) söylədiklərinə absurd reaksiya verən eks-təhsil naziri Misir Mərdanov da həmin qəbildəndir. Əslində “Şərurlu İsfəndiyar” öz açıqlamasında daha bir cinayət əməlinə yol verdiyini efirdən etiraf edib. Tikdiyi binalarda bir evi bir neçə nəfərə satması ilə ad çıxaran Axundov bu dəfə də öz övladlarına saxta yolla, rüşvətlə diplom aldığını deyib.



Onun məlum etirafının müzakirələrə yol açması təbiidir. Axı bu, çox ciddi qanun pozuntusu, cinayətdir. Digər tərəfdən, belə çıxır, Axundovun övladlarının ali təhsilini təsdiq edən sənəd (diplom) saxtadır. Və əgər onlar həmin diplomla işə düzəliblərsə, təcili araşdırılıb, işdən uzaqlaşdırılmalıdırlar. Hər halda bunu qanunvericiliyin müvafiq müddəaları tələb edir.

Lakin ortada başqa maraqlı nüans da var: “Şərurlu İsfəndiyar” sözügedən diplomları neçənci ildə satın alıb? Həmin dövrdə nazir kim olub?

Bu suala cavab axtarışına çıxan medianın araşdırmaları sonuncu sualın cavabının Misir Mərdanov olduğunu göstərib. Ancaq sabiq təhsil naziri Misir Mərdanova “Globalinfo”ya açıqlamasında İsfəndiyar Axundovun dediklərinin həqiqətə uyğun olmadığını bildirib: “…Azərbaycanda heç vaxt diplom satılmayıb. İnsanlarda yanlış fikir formalaşdırırlar. Necə yəni diplomu alıb?! Bəli, ola bilər, onun övladı universitetə hansısa yolla qəbul olub, amma dərsə getməyib və ya az gedib. Lakin dərsə gəlmədiyi halda saxta qiymətlər yazılması mümkündür. Qiymətləri yazıldığı üçün də onlara diplom verirlər. Bu, o demək deyil ki, nazir kiməsə diplom satıb. Adam çıxıb ağzına gələni danışır, saytlar da bunu tirajlayır. Belə şey yoxdur, heç vaxt da olmayıb. Nə məndən öncə, nə mənim zamanımda, nə də məndən sonra”.

Misir Mərdanov obrazlı danışmağı da unutmayıb: “İsfəndiyar Axundov bir evi beş adama satan biridir. Elə bilir ki, özü bir evi beş adama satdığı kimi, diplom da satılır”.

Əlbəttə, Mərdanovun təhsil nazir olduğu illərə şahidlik etməyənlər elə bilər ki, Misir müəllim sözügedən vəzifəni tutarkən həmin sahədə “gül gülü, bülbül bülbülü çağırıb”. Lakin fakt faktlığında qalır: eks-nazirin zamanında Azərbaycan məktəblərində rüşvət və korrupsiya özünün pik həddinə çatmışdı; “süpürgəpulu”, “tabaşirpulu”, “fondpulu”, “8 mart pulu” valideynlərin və şagirdlərin dilində əzbərə çevrilmişdi. Dərs saatının pulla bölüşdürülməsindən müəllimlərin işə qəbuluna və direktor təyinatlarınadək rüşvətin rolu hər kəsə məlum idi. Hələ yeni məktəblərin tikintisindəki yeyintilərdən danışmırıq!

Sadəcə bir faktı yada salaq: “Məktəb tikintisi və təmir işləri zamanı ciddi yeyinti halları aşkar olunub. Bu işləri görən kommersiya təşkilatları, həm də Təhsil Nazirliyinin vəzifəli şəxsləri çox ciddi qanun pozuntularına yol veriblər. Bununla bağlı başlanmış üç cinayət işinin istintaqı davam etdirilir. Eyni zamanda tikinti zamanı yol verilmiş qanun pozuntularının aradan qaldırılması ilə bağlı Təhsil Nazirliyinə mənim tərəfimdən müvafiq təqdimat göndərilib” - 2012-ci ildə o vaxtkı Zakir Qaralov belə demişdi. Həmin vaxt Baş Prokurorluğun Maliyyə Nazirliyi ilə birgə apardığı araşdırma əsasən Bakı şəhəri 123, və 85 saylı orta məktəbləri əhatə etmişdi.

Ümumiyyətlə, Mərdanovun vaxtında məktəblərin inşası zamanı xərclərin ağlasığmaz dərəcədə şişirdilməsi adi hal idi və bununla bağlı konkret faktlar Misir müəllimin nazir olduğu zamanlar ölkə mətbuatının səhifələrini bəzəyirdi.

Lakin indi keçmiş nazir həftə səkkiz, mən doqquz mətbuata elə açıqlamalar verir ki, elə bil camaat çörəyi qulağına yeyir, ya da yaddaş pozğunluğu yaşayır!

Lap saxta diplomlarla bağlı olduğu kimi…

Ola bilsin, Misir müəllimin özünəvurğunluğu onun yaddaşında problemlər yaradıb, odur ki, biz xatırladaq:

- 2014-cü ildə Bakı şəhər sakini, Sabunçu rayonundakı orta məktəblərdən birində müəllimə işləyən Xatirə Əmənova Gəncə şəhər sakini, Azərbaycan Müəllimlər İnstitutu Gəncə filialında operator işləyən Nərgiz Əliyeva ilə birgə Sevil Hacıyevaya 5800 manat pul müqabilində 1 ədəd Azərbaycan Müəllimlər İnstitutunun Gəncə filialının diplomunu satdıqları üçün Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşları tərəfindən saxlanılmışdılar. Saxta diplom verilməsi Mərdanovun nazir olduğu zamanda təsadüf edirdi;

- Yeri gəlmişkən, Müəllimlər İnstitutunun bağlanan Gəncə filialının sabiq direktoru Ramiz Məmmədovun bu vəzifədə olarkən (2000-2013-cü illər) 7 minə yaxın saxta diplom satdığı onun barəsində açılmış cinayət işi ilə təsdiqlənmişdi;

- Təhsil eksperti Etibar Əliyev Milli Məclisin deputatı olarkən (2022-ci ildə) Naxçıvan Ali Məclisinin sabiq sədri Vasif Talıbovla bağlı şok iddia ilə çıxış etmişdi. O özünün sosial şəbəkə hesabında keçmiş sədrin saxta diplom aldığını yazmışdı. Keçmiş deputatın yazdıqlarından belə aydınlaşırdı ki, 1960-cı ildə Naxçıvanda doğulan Vasif Talıbov BDU-da hüquqşünas ixtisası üzrə ikinci təhsil alıb və 1998-ci ildə bu ali məktəbdən məzun olub. V.Talıbov həmin illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı və Naxçıvan Ali Məclisinin sədri postunu tutub. Araşdırmalar zamanı V.Talıbovun bir dəfə belə universitetdəki sessiyalarda iştirak etmədiyi, hətta imtahanlara qatılmadığı məlum olub.

- Və nəhayət, hazırkı təhsil naziri Emin Əmrullayev bir müddət öncə bildirmişdi ki, 15-20 il əvvəl külli miqdarda saxta diplom verən ali məktəblərimiz olub: ”Belə tendensiya olub. Bunun faktları da var. Biz diplomu sübut edə bilmədiyimiz üçün deyirik ki, gəl sertifikasiyadan keç, onda işləyə bilərsən”.

Nümunələrin sayını bəs deyincə uzatmaq mümkündür. Ancaq buna ehtiyac görmürük. Sadəcə, Misir müəllimə və onun timsalında sabiq iri məmurlara demək istəyirik ki, öz fəaliyyət dövrləri ilə bağlı yaxın tarixin reallıqlarını inkar etməyə çalışmasınlar. Onlar sağdırlar, lakin onların vəzifədə olduqları illərə şahidlik edənlər də sağdırlar və yaddaşlarını itirməyiblər. Hər şeyi lap dünənmiş kimi xatırlayırlar: yaxşını yaxşı, pisi də pis olaraq!…

Bu səbəbdən də kimsə dünəni təhrif etməyə, özündən paklıq rəmzi yaratmağa çalışmasın.

Məşhur filmimizdə deyildiyi kimi, “hələ Əhmədin anası ölməyib!”.

*Sənan Mirzə*



# Bankların qiymətləndirilməsi meyarları təsdiqləndi

***Azərbaycan Mərkəzi Bankı (AMB) “Bankın sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi Meyarları”nı təsdiqləyib.***

Bu meyarlar “Banklar haqqında” Azərbaycan Respublikası Qanununun 57-9.2-ci maddəsinə uyğun olaraq hazırlanmışdır və Azərbaycan Respublikasında fəaliyyət göstərən bankların və xarici bankların yerli filiallarının sistem əhəmiyyətli bank kimi qiymətləndirilməsi meyarlarını müəyyən edir.

Qeyd edilib ki, bankın sistem əhəmiyyətliliyi aşağıdakı cədvəldə verilmiş göstəricilər (kateqoriyalar, indikatorlar və həmin indikatorlara verilmiş xüsusi çəkilər) vasitəsilə qiymətləndirilir:

| No | Kateqoriya | İndikator | Xüsusi çəki (%) |
|---|---|---|---|
| 1 | Ölçü | Cəmi aktivlər | 30% |
| | | Depozit portfeli | 10% |
| 2 | Şaxələnmə | Maliyyə institutları qarşısında öhdəliklər | 8.3% |
| | | Maliyyə institutlarında yerləşdirilən aktivlər | 8.3% |
| | | Qiymətli kağızlar üzrə öhdəliklər | 8.3% |
| 3 | Əvəzolunmazlıq | Ödəniş sistemləri vasitəsilə aparılan əməliyyatlar | 7.5% |
| | | Əmanətçi sayı | 7.5% |
| | | Unikal müştəri sayı | 7.5% |
| | | Maliyyə inklüzivliyi | 7.5% |
| 4 | Mürəkkəblik | Birjadankənar törəmə maliyyə alətləri | 2.5% |
| | | Ticarət məqsədləri üçün nəzərdə tutulan qiymətli kağızlar | 2.5% |

Qeyd edilib ki, sistem əhəmiyyətli bankların siyahısı hər il 1 mart tarixinədək Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə təsdiq edilir.

Sistem əhəmiyyətli bankların müəyyən edilməsi barədə qərar qəbul edildiyi tarixdən 5 (beş) iş günü ərzində bu barədə müvafiq banka və Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə yazılı məlumat verilir və sistem əhəmiyyətli bankların siyahısı Azərbaycan Respublikası Mərkəzi Bankının rəsmi internet səhifəsində dərc olunur.

# Azərbaycanla Türkiyə arasında təhsil sahəsində əməkdaşlıq müzakirə olunub

***Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev aprelin 9-da Türkiyənin Azərbaycandakı səfiri Birol Akgün ilə görüşüb.***



Bu barədə “Unikal”a Elm və Təhsil Nazirliyindən məlumat verilib.

Bildirilib ki, görüş çərçivəsində Türkiyə ilə cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:32 PM Page 9



## Konstitusiya Məhkəməsinin 77 yaşlı hakimi təqaüdə göndərildi

***Konstitusiya Məhkəməsinin hakimi Rafael Qvaladze təqaüdə yola salınıb.***

R. Qvaladzenin təqaüdə yola salınmasına səbəb onun son yaş həddinə çatmasıdır.

Qeyd edək ki, 77 yaşlı Rafael Qvaladze 1998-ci ildən Konstitusiya Məhkəməsinin hakimi idi. Prezident İlham Əliyev bu gün onu "Vətənə xidmətə görə" ordeni ilə təltif edib.

Xatırladaq ki, Milli Məclisin aprelin 11-nə təyin olunan iclasının gündəliyinə keçmiş hərbi prokuror Xanlar Vəliyevin Konstitusiya Məhkəməsinə hakim təyin edilməsi ilə bağlı məsələ daxil edilib.

## Azərbaycanda bahalaşan və ucuzlaşan məhsullar - Siyahı

***Cari ilin mart ayında əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından daha çox bahalaşma balıq və balıq məhsullarının, süd və süd məhsullarının, süfrə marqarininin, kərə, günəbaxan və qarğıdalı yağlarının, limonun, portağalın, bananın, almanın, armudun, kivinin, qozun, fındığın, kələmin, brokkolinin, pomidorun, şirin bibərin, badımcanın, süfrə çuğundurunun, yerkökünün, sarımsağın, soğanın, kartofun, qəhvənin, kakaonun, qazlı və qazsız suların, siqaretin qiymətlərində müşahidə edilib.***

"Unikal" Dövlət Statistika Komitəsinə istinadən xəbər verir ki, ötən ay əvvəlki aya nisbətən ayrı-ayrı qida məhsullarından ucuzlaşma isə unun, yumurtanın, göyərtinin, xiyarın qiymətlərində müşahidə olunub.

Qeyd edilib ki, 2025-ci ilin mart ayında qeyri-qida məhsulları üzrə istehlak qiymətləri indeksi əvvəlki aya nisbətən 100,1 faiz, yanvar-mart aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 102,7 faiz təşkil etmişdir. Mart ayında əvvəlki ayla müqayisədə qeyri-qida məhsullarından bahalaşma kərpicin, sementin, ortopedik döşəklərin, mebellərin, zərgərlik məmulatlarının, ucuzlaşma isə məişət cihazlarının, mobil telefonların, televizorların qiymətlərində müşahidə olunmuşdur. Digər qeyri-qida məhsullarının qiymətlərində ciddi dəyişikliklər baş verməyib.

## Natəvan Bayramova vəzifədən getdi

***Dövlət Miqrasiya Xidmətinin mətbuat katibi Natəvan Bayramova tutduğu vəzifədən gedib.***

"Unikal" xəbər verir ki, bu barədə o, sosial şəbəkə paylaşımında bildirib.

"Artıq iki ildir fəaliyyət göstərdiyim Dövlət Miqrasiya Xidmətindəki işimdən öz xahişimlə ayrıldım. Bu illər ərzində mənə dəstək, kömək olan hər kəsə öz təşəkkürümü bildirirəm", - deyə Natəvan Bayramova qeyd edib.

## Hərbi jurnalistə vəzifə verildi

***Hərbi jurnalist Anar Şuşalıya vəzifə verilib.***

"Unikal" xəbər verir ki, o, Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin böyük məsləhətçisi təyin olunub.

# Elman Rüstəmovun Londondakı biznesi "batır"

## Sabiq baş bankirin ailə şirkəti son 2 ildə milyonlarla manat zərər edib - İlginc detallar!

***Son vaxtlar Azərbaycanın indiki və sabiq məmurlarının bəzilərinin övladlarına məxsus London mərkəzli şirkətlərə dair ilginc məlumatlar yayılmaqdadır. Həmin məlumatlarda bu şirkətlərin maliyyə hesabatlarına əsasən onların ya müflisləşməkdə olduğu, ya da yerli-dibli bağlandığı aydınlaşır.***

Sözügedən şirkətlərdən biri də İngiltərənin paytaxtında fəaliyyət göstərən və Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmovun qızı Günel Rüstəmovaya məxsus olan "Gyunel Limited" şirkətidir. Bu şirkətin ötənilki zərəri kifayət qədər böyük məbləğdə - 6 milyon 185 min 751 funt-sterlinq (13,6 milyon manat) olub.

"Yeni avaz"ın məlumatına görə, adı çəkilən şirkət 28 aprel 2005-ci ildə "Basement 32 Woodstock Grove, London, Uk W12 8LE" ünvanında qeydiyyatdan keçib.



Maraqlı burasıdır ki, ölkənin sabiq baş bankirinin ailə şirkətinin 2023-cü ildə də zərər etdiyi aydınlaşıb. "Unikal" qəzetinin araşdırmasına görə, Rüstəmovun qızı tərəfindən idarə olunan "Gyunel Limited"in ötən il mart ayında açıqlanan maliyyə hesabatında şirkətin 6 milyon 195 min 983 funt-sterlinq (13,3 milyon manat) zərər etdiyi göstərilib.

Belə çıxır ki, Mərkəzi Bankın sabiq rəhbərinin qızına məxsus şirkət artıq 2 ildən çoxdur ziyanla işləməkdədir.

"Unikal" onu da xəbər verir ki, Günel Rüstəmova Azərbaycanda doğulub. Orta təhsilini Bakıda, ali təhsilini isə Böyük Britaniyada alıb. O, əvvəlcə London Kollecində modelyerlik üzrə təhsil alıb, daha sonra İngiltərədə nüfuzlu təhsil ocağı sayılan "Central Saint Martins"i incəsənət və moda sənayesi ixtisası üzrə bitirib, yüksək dərəcəli dizayner diplomuna sahiblənib.

Bir neçə il əvvəl yerli KİV yazırdı ki, G.Rüstəmova hazırda Avropada tanınmış modelyerlərdən biridir. 10 ildən çoxdur Londonda yaşayan azərbaycanlı modelyerin kolleksiyaları indiyədək dünyanın bir çox dəb şoularında nümayiş olunub. Londonda, Parisdə onun kolleksiyalarının nümayişi üçün yüksək səviyyəli dəb şouları keçirilib.

Elman Rüstəmovun özünə gəlincə, o, 1992-ci ilin dekabrında Azərbaycan Respublikası Milli Bankı İdarə Heyəti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. 1993-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi alıb. 1995-ci ilin yanvarında Prezidentin sərəncamı ilə Azərbaycan Respublikası Milli Bankı İdarə Heyətinin sədri vəzifəsinə təyin edilib. Bundan sonra o, hər 5 ildən bir Milli Bankın İdarə Heyətinin sədri vəzifəsinə yenidən təyinat alıb.

Sonuncu belə təyinat 2020-ci ildə gerçəkləşib. Lakin 2 il sonra Rüstəmov baş bankir postu ilə vaxtından xeyli əvvəl vidalaşmalı olub. Düzdür, Mərkəzi Bankın rəhbəri postunu itirdikdən bir müddət sonra Baş nazir Əli Əsədov 13 aprel 2022-ci il tarixli sərəncamı ilə onu özünə müşavir təyin edib, lakin unudulmamalıdır ki, həmin vəzifə Elman müəllimin əvvəlki vəzifəsi ilə müqayisədə xeyli simvolik xarakter daşıyıb, ən əsası isə keçmiş baş bankirin biznesini çətinliklərdən qurtarmağa kifayət etməyb.

Azərbaycan mediası iki ildir Rüstəmovun öz postunu itirdikdən sonra ölkə daxilindəki biznes imperiyasının kəskin zəifləndiyindən yazır. Məsələn, ötən ilin payızında məlum olub ki, o, Qax rayonundakı əmlaklarını satışa çıxarıb. "Az-Politika" adıçəkilən rayondan daxil olan məlumata əsasən bildirib ki, keçmiş baş bankirə məxsus iri torpaq sahələri, villalar, obyektlər satışa qoyulub.

"Keçmiş bankirin əmlakını satışa çıxarması yeni xəbər deyil, o, digər sahələrdəki investisiyalarına da "əl gəzdirir". Bundan əvvəl Elman Rüstəmovun biznes imperiyasının tərkib hissəsi kimi təqdim edilən "Səba" ASC-də ciddi maliyyə problemləri yarandığı bildirilirdi. Qeyd olunur ki, sirkətin səhmdarlarının növbədənkənar ümumi yığıncağının gündəliyinə ASC-nin aktivlərinin bir hissəsinin satılması məsələsi salınıb. Belə ki, İdarə Heyəti qərarında yığıncağın gündəliyinə törəmə şirkətlərdəki "Səba" ASC-yə məxsus payların satılması da daxil edilib. Xatırladaq ki, "Səba"nın aktivləri Hidayət Quliyev (37,5%), Natiq Quliyev (37,5%) və Azərbaycan İnvestisiya Holdinqinə (25%) məxsusdur. Onların Mərkəzi Bankın sabiq sədri Elman Rüstəmovun xalası oğlanları olduğu bildirilir" - deyə yerli KİV yazırdı.

Həmçinin "Bank Respublika" ASC-nin əsas səhmdarlarından olan Natiq Quliyevin qardaşları Elçin və Namiq Quliyevlə birlikdə Elman Rüstəmovun Azərbaycanda müxtəlif sahələrə aid biznesini idarə etdikləri bildirilirdi. Qeyd olunurdu ki, bura Rüstəmova aid bəzi bank və şirkətlərlə yanaşı, maşın salonları, restoranlar, şadlıq evləri, quşçuluq təsərrüfatı və sair daxildir. Sözügedən biznesin isə Rüstəmov postunu itirdikdən sonra çöküşə başladığı vurğulanırdı.

İndi də sabiq baş bankirin AMB rəhbərliyindən getməsinin ardınca onun xaricdəki, daha dəqiq desək, Londondakı biznesinin milyonlarla manatlıq zərər etməsi xeyli düşündürücü məqamdır. Bir daha təsdiqlənir ki, vəzifəli şəxslərin ailə şirkətləri məhz onların tutduqları postlar hesabına çiçəklənir, elə ki, hansısa məmur kreslosunu itirir, onun ailə biznesi də "batmağa" başlayır.

Elman Rüstəmov bunun növbəti nümunəsidir, lakin yəqin ki, o da sonuncu olmayacaq...

***Toğrul Əliyev***

13_27 IYUl-QARA.qxd 4/10/2025 10:32 PM Page 10



# Məmurların bahalı maşın sevdası bitmək bilmir

## Bəzi dövlət qurumları hələ də yüz minlərlə manatlıq avtomobillər alır - Gözqamaşdıran rəqəmlər!

***Azərbaycan məmurlarının bahalı xidməti avtomobillərə həvəsi təzə xəbər deyil. Onların bu sevdası neft gəlirlərinin sürətli axını başlayan illərdən yüksəlib. Söhbət 2008-2014-cü illərdən gedir.***

Həmin illərdə dövlət məmurlarının böyük əksəriyyəti üçün park yenilənib, o dövrün ən bahalı avtomobilləri alınıb. Məmurların bahalı maşın sevdası o qədər ifrata varıb ki, o vaxtkı baş nazir Artur Rasi-zadə 2011-ci ildə "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" qərar imzalayıb. Qərarda bildirilir ki, məqsəd dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin alınması və istismarı zamanı büdcə vəsaitlərinin səmərəli istifadə olunmasını təmin etmək, bu edən xidməti nəqliyyat vasitələri mərkəzi və yerli icra hakimiyyəti orqanlarının, dövlət adından yaradılan publik hüquqi şəxslərin və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin balanslarından çıxarılaraq özəlləşdirilməsi üçün Əmlak Məsələləri Dövlət Komitəsinə (artıq bu qurum ləğv olunub - red.) təqdim ediləcək və nəticə barədə Prezidentə məlumat veriləcəkdi.

Fərmandan bir neçə ay sonra Nazirlər Kabinetindən "Yeni Müsavat"ın sorğusuna cavab olaraq bildirilmişdi ki, qurum tərəfindən müvafiq təklif hazırlanıb. Lakin ötən müddət ərzində bu məsələ ilə bağlı hər hansı qərar qəbul olunmayıb, çünki Nazirlər Kabineti dövlət qurumlarının xidməti avtomobilləri ilə bağlı dəyişiklikləri hələ də 2011-ci il qərarı əsasında həyata keçirir. Yalnız 2019-cu ilin aprelində qərara dövlət qurumlarının xidməti avtomobilləri üçün yeni yürüş həddini müəyyənləşdirən dəyişiklik edilib. Qanunun 44-cü maddəsində qeyd olunur ki, ehtimal olunan qiymət 100 000 manat və ondan çox olduqda, satınalmalar açıq tender və ya ikimərhələli tender metodları tətbiq edilməklə keçirilir. Ehtimal olunan qiymət 100 000 manatdan az olduqda, satınalmalar kotirovka sorğusu metodu tətbiq edilməklə keçirilə bilər. Bu şirkət isə 200 min manat məbləğindən artıq müqavilə imzalayıb, tender keçirib.

Və ya: 2025-ci ilin yanvarında açıqlanıb ki, keçən ilin təkcə son bir ayında bir neçə dövlət qurumu ümumilikdə 2 milyon manatlıq yeni avtomobillərə sahib olublar. Həmin avtomobillər arasında 4 ədədi 448 min 800 manata alınan "Sedan" tipli xidməti maşınlar da var, 7 ədədi 655 min 500 manata alınan hibrid mühərrikli avtomobillər də...

O da maraqlıdır ki, bir neçə il öncə ölkə başçısının dövlət qurumlarına və məmurlara yerli istehsal olan "NAZ-Lifan" avtomobili almağı tövsiyə etməsinə baxsahədə nəzarəti gücləndirmək və normativ hüquqi bazanı təkmilləşdirməkdir. Eyni zamanda baş nazir dövlət orqanlarına tapşırıb ki, xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər çərçivəsində alınması, təyinatı üzrə istifadəsi və saxlanılmasına nəzarəti gücləndirsinlər və bu sahədə neqativ hallara yol verilməsinin qarşısını alsınlar.



Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, şəhər və rayon icra hakimiyyətlərinin başçılarına tapşırılıb ki, rəhbərlik etdikləri dövlət orqanlarında və onların yerli bölmələrində, dövlət orqanlarının strukturuna daxil olmayan, tabeliyində olan dövlət büdcəsindən maliyyələşən qurumlarda (idarə, müəssisə və təşkilatlarda) bu qərarla müəyyən edilmiş normalara ciddi riayət olunmasına nəzarət etsinlər.

Üstündən 8 il keçəndən sonra 2019-cu ilin 17 yanvarında Prezidentin imzaladığı "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına dövlət strukturlarının avtomobil təminatı sisteminin təkmilləşdirilməsinə yönəlik tədbirlər daxil edib. Belə ki, fərmanın 8-ci bəndinə əsasən Nazirlər Kabineti üç ay müddətində mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, dövlət adından yaradılan publik hüquqi şəxslərdə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə xidməti nəqliyyat vasitələri ilə təmin edilməli vəzifələrin siyahısını Prezidentlə razılaşdırmaqla müəyyən etməli idi. Sənədə əsasən müəyyən olunacaq siyahıdan kənarda qalan vəzifələrdə işləyən şəxslərə xidmət Prezidentin 17 yanvar 2019-cu il tarixli fərmanından sonra isə qərara müxtəlif dövlət qurumları üzrə xidməti avtomobillərin sayını artıran xeyli sayda dəyişiklik olunub. Bunların mühüm bir qismi yeni yaradılan qurumlara xidməti avtomobil limitinin müəyyənləşdirilməsi, qalanları isə mövcud limitlərin artırılması barədədir.

Nəticə etibarilə isə hələ də bəzi dövlət qurumları bahalı xidməti avtomobillər almaqda davam edirlər. Üstəlik, dövlətin öz maliyyə gücünün önəmli hissəsini Qarabağda quruculuq və abadlıq işlərinə yönəltdiyi bir vaxtda!

Məsələn, bu ilin əvvəlində məlum olub ki, İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi "Toyota Abşeron Center" MMC şirkətindən 233 min 100 manat müqabilində Toyota (Camry) adlı nəqliyyat vasitəsi satın alıb. Lakin Dövlət Satınalma Portalının məlumatına görə, tender portaldan kənar, yəni "Bir mənbə" satınalma metodu kimi qeyd olunub, elektron satınalma ilə deyil. Belə olduğu təqdirdə tenderin necə, hansı şərtlərlə keçirildiyi, nə qədər avtomobil sifariş edildiyi və digər detallar gizli saxlanılır. "Dövlət satınalmaları haqqında" mayaraq, xidməti avtomobillərin satınalınmasına dair rəsmi sənədlərdə biz xarici avtomobillərin, xüsusilə də "Toyota" markalı yapon istehsalı olan maşınların alındığını görürük. Bundan başqa, məmurlarımız Cənubi Koreya istehsalı olan və "Hyundai" şirkəti tərəfindən istehsal edilən "Elantra" modelinə, həmçinin digər bahalı markalara da həvəs göstərirlər.

Daha bir ilginc nüans var: dövlət qurumları yüksək qiymətə xarici avtomobillər alırlar, az sonra isə dəyər-dəyməzinə satırlar. Bir müddət öncə bu məqama diqqət çəkən iqtisadçı Asif İbrahimov "baki-xeber.com" saytına açıqlamasında bildirmişdi ki, bu israfçılıqdır. Sitat: "Konkret olaraq, dövlət qurumlarına bahalı avtomobillərin alınması qadağan edilməlidir. Xüsusilə də həmin qurumlar Azərbaycanda istehsal edilən avtomobillərin alınmasına məcbur edilməlidir".

Lakin görünən odur ki, nə ekspertlərin tövsiyələri, nə medianın tənqidləri, nə də vətəndaşların narazılığı hələ ki, bəzi məmurları bahalı xidməti avtomobillər almaq sevdasından çəkindirmək üçün kifayət deyil...

***Sənan Mirzə***

# Buraxılış imtahanının nəticələri elan olundu



***Tam (11 illik) orta təhsil səviyyəsi üzrə 2 mart 2025-ci il tarixində keçirilmiş buraxılış imtahanının nəticələri elan olunub.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib. Bildirilib ki, imtahanda iştirak edən 11-ci sinif şagirdləri verilmiş keçidə daxil olaraq iş nömrəsi (8 rəqəmli şagird kodu) və şəxsiyyəti təsdiq edən sənədin nömrəsindən (və ya FİN kodundan) istifadə etməklə öz imtahan nəticələri, cavab vərəqinin qrafik təsviri, qapalı tipli tapşırıqların doğru cavabları, həmçinin hər bir ətraflı yazılı cavab tələb edən açıq tipli tapşırıq üzrə qiymətləndirmə meyarları (tapşırığın ehtimal olunan doğru cavabları, həlli, qiymətləndirmə şkalası və yazı işi nümunələri) ilə tanış ola bilərlər. İmtahan iştirakçıları iş nömrələrini buradan öyrənə bilərlər.

Şagirdlər imtahan nəticələri haqqında məlumatı (hər fənn üzrə ümumi balı), həmçinin mobil operatorlar (Azercell, Bakcell, Nar, Naxtel) vasitəsilə "iş nömrəsi"ni (8 rəqəmli şagird kodunu) 7727 nömrəsinə göndərməklə də öyrənə bilərlər.

Yazı işlərinin (açıq tipli tapşırıqların cavabları) yoxlanılması prosesi onlayn şəkildə həyata keçirilib. Belə ki, hər marker yoxlama prosesinə öz evindən qoşularaq proqramın onun kompüterinə təsadüfi göndərdiyi işləri yoxlayıb. Qeyd edək ki, onlayn yoxlama prosesində üztanıma texnologiyası tətbiq edilib və yoxlama prosesinin bütün tələblərinə (meyarların təkmilləşdirilməsi, işlərin şifrələnməsi, markerlərin hər tapşırıq üzrə yoxlamadan əvvəl kalibrləmədə iştirak etməsi, yoxlama ərzində "seeding" (markerlərə sayıqlığı itirməmək üçün əvvəlcədən hazırlanan və kalibrə edilən sualların mütəmadi olaraq göndərilməsi) prosesinin tətbiqi, işlərin markerlərə proqram tərəfindən təsadüfi göndərilməsi, imtahan protokollarının araşdırılması və s.) əməl olunub.

Yazı işlərinin onlayn yoxlanılması üçün proqram təminatı Dövlət İmtahan Mərkəzinin mütəxəssisləri tərəfindən hazırlanıb.

Qeyd edək ki, buraxılış imtahanında şagirdlərə tədris dili fənnindən 10 yazılı cavab tələb edən açıq və 20 qapalı, riyaziyyat fənnindən 7 yazılı cavab tələb edən açıq, 5 kodlaşdırılan açıq, 13 qapalı, xarici dil fənnindən 7 yazılı cavab tələb edən açıq və 23 qapalı tipli tapşırıq olmaqla ümumilikdə 85 tapşırıq təqdim olunur. Bu mərhələdə fənlərinin hər biri üzrə toplanıla biləcək maksimal bal 100 olmaqla, ümumilikdə 300 baldır. Balların hesablanması qaydası ilə linkdəki faylda tanış ola bilərsiniz.

Bu imtahanda iştirakı nəzərdə tutulan 57439 nəfərdən 468 nəfər imtahana gəlməyib. İmtahan qaydalarını pozduğu üçün 10 nəfərin nəticəsi ləğv olunub.

İmtahan iştirakçıları arasında 23 nəfər 300 bal toplamaqla ən yüksək nəticəni göstərib.

İmtahan nəticələri ilə bağlı müraciətlərə baxılması üçün DİM-də Apellyasiya Komissiyası fəaliyyət göstərəcək. Apellyasiya Komissiyasına müraciət etmək istəyənlər 14?16 aprel tarixlərində DİM-in saytında yerləşdiriləcək elektron ərizəni doldurmaqla qeydiyyatdan keçə bilərlər. Göstərilən müddət ərzində qeydiyyatdan keçməyənlər sonradan Apellyasiya Komissiyasına müraciət edə bilməyəcəklər. Elektron ərizədə haqqında müraciət edilən tapşırığın nömrəsi seçilməli, onunla bağlı müraciətin məzmunu yazılmalı və meyarın hansı bəndinə uyğun hesab edildiyi göstərilməlidir. Elektron ərizədə müraciətin məzmunu qeyd olunmadığı halda ərizə qəbul edilmir və həmin müraciət araşdırılmır. Apellyasiya prosesi aşağıdakı ardıcıllıqla aparılır:

Apellyasiya Komissiyası tərəfindən haqqında müraciət olunan bütün işlər araşdırılır;

Şagirdlərin müraciət etdikləri tapşırıqlar üzrə ekspert rəyi (yazılı şəkildə) apellyasiya ərizələrinə əlavə edilir;

Şagirdlərin apellyasiya ərizələrində qeyd etdikləri telefon nömrəsinə apellyasiya prosesinin başa çatması ilə bağlı "sms" göndərilir.

Bundan sonra şagirdlər apelyasiya.dim.gov.az saytında ərizələrinə daxil olaraq apellyasiyanın nəticəsi ilə tanış ola və ekspert rəyini oradan çap edə bilərlər.

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:32 PM Page 11



# Mərkəzi Bank kiberdələduzluqla bağlı banklara göstəriş verdi

***Azərbaycan Mərkəzi Bankın (AMB) son zamanlar vətəndaşların bank kartlarından onların adına 10-15 min manat və daha böyük məbləğlərdə kredit rəsmiləşdirməsi məsələsinə münasibət bildirib.***

“Unikal”az xəbər verir ki, AMB-dən verilən məlumata görə, maliyyə institutlarında kiber dayanıqlığın yüksəldilməsi, informasiya təhlükəsizliyinin gücləndirilməsi, o cümlədən kiber təhdid və risklərə qarşı adekvat nəzarət mexanizmlərinin tətbiqi, risk əsaslı tənzimləmə çərçivəsinin formalaşdırılması və bu istiqamət üzrə digər tədbirlər Mərkəzi Bankın daim diqqət mərkəzindədir.

Bu məqsədlə, Mərkəzi Bank tərəfindən 2023-2026-cı illər üçün “Maliyyə bazarları üzrə kibertəhlükəsizlik Strategiyası” hazırlanıb və onun tətbiqinə başlanılıb. Bununla yanaşı, ”Maliyyə bazarlarında fəaliyyətinə nəzarət edilən subyektlərdə informasiya təhlükəsizliyinin təmin edilməsinə dair” Tələblər qüvvəyə minib. Həmin Tələblərdə misal üçün, fərdi məlumatların üçüncü şəxslərə icazəsiz ötürülməsinin qarşısının alınması, bu məlumatların müvafiq şifrələnmə metodları ilə qorunması və nəzarət subyektləri tərəfindən müştəriləri informasiya təhlükəsizliyi ilə əlaqədar azı rübdə bir dəfə maarifləndirməsi kimi tələblər yer alır.

2025-ci ilin yanvar ayında “Banklarda əməliyyat risklərinin idarə edilməsi Qaydası” qəbul edilib. Qayda bankda kredit dələduzluğu, pul vəsaitlərinin mənimsənilməsi, saxtakarlıq halları, müştəri hesablarının ələ keçirilməsi, kiberhücumlar kimi bankdaxili və bankdankənar dələduzluq halları üzrə risk hadisələrinin aşkarlanmasına, reyestrinin aparılmasına, hesabatlığına, monitorinqinə və bu cür risk hadisələrinin qarşısının alınması məqsədilə bankın biznes proseslərinin təkminləşdirilməsinə dair tələbləri tənzimləyir.

Həmçinin qeyd edilib ki, Mərkəzi Bankın “Bank hesablarının açılması, aparılması və bağlanması Qaydası” və “Banklarda kredit risklərinin idarə edilməsi Qaydası”nda məsafədən bank hesablarının açılması və istehlak krediti müqaviləsinin bağlanması zamanı dələduzluq risklərinin minimallaşdırılması məqsədilə müştərini dürüst müəyyənləşdirməyə dair, o cümlədən video zəng və video çəkiliş aparılmasına dair tələblər müəyyən olunur. Bununla yanaşı, “Ödəniş xidmətləri və ödəniş sistemləri haqqında” Qanuna və Mərkəzi Bankın “Gücləndirilmiş müştəri autentifikasiyasının tətbiqi Qaydası”na əsasən ödəniş hesabına məsafədən (internet, telefon və digər kommunikasiya kanalları vasitəsilə) daxil olduqda, habelə bir təmassız ödənişin məbləği 100 manat (və ya ekvivalentindən), bu cür əməliyyatların günlük həcmi isə 500 manat və ya ekvivalentindən artıq olduqda banklar tərəfindən ikili autentifikasiyanı özündə əks etdirən gücləndirilmiş müştəri autentifikasiya tədbirləri həyata keçirilməlidir. Həmçinin sözügedən Qaydaya əsasən, banklar avtorizə edilməmiş və ya fırıldaqçılıq əməliyyatlarını aşkar edən əməliyyatların monitorinqi mexanizminə sahib olmalıdır.

Eyni zamanda banklarda informasiya və kibertəhlükəsizliyin təmin olunması, dələduzluğa qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə Azərbaycan Banklar Assosiasiyasının ekspert qrupları çərçivəsində davamlı iş aparılır, aidiyyəti hüquq mühafizə orqanlarının nümayəndələri cəlb olunmaqla müzakirələr təşkil olunur.

Bundan əlavə, bütün maliyyə institutları əmlakın cinayət yolu ilə əldə edilməsinə şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan halları, o cümlədən dələduzluqla bağlı halları aşkar etdikdə bu barədə məlumat və sənədləri Maliyyə Monitorinqi Xidmətinə (MMX) təqdim etməlidirlər. MMX şübhəli hallara dair əldə edilmiş məlumat və sənədlərin keyfiyyətini qiymətləndirir, şübhəli halların müəyyən edilməsi, eləcə də risk qiymətləndirilməsinin aparılması məqsədilə taktiki və strateji təhlil metodlarından istifadə edir. Əgər aparılan təhlil zamanı cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması, terrorçuluğun maliyyələşdirilməsi və ya digər cinayətlərin əlamətləri müəyyən edilərsə, bu barədə məlumat və sənədlər dərhal aidiyyəti cinayət təqibi orqanına təqdim edilir.

Mərkəzi Bank maliyyə institutlarına münasibətdə apardığı yoxlamalar zamanı cinayət yolu ilə əldə edilmiş əmlakla bağlı şübhə və ya belə şübhə üçün kifayət qədər əsaslar yaradan halları araşdırır və əgər müvafiq məlumat və sənədlərin MMX-yə göndərilmədiyini aşkar edərsə, dərhal onların həmin quruma təqdim edilməsini təmin edir, onların təqdim edilməməsinin səbəblərini araşdırır və onları təqdim etməyən maliyyə institutlarına qarşı inzibati və ya qanunvericilikdə nəzərdə tutulmuş digər tədbirləri tətbiq edir.

”Mərkəzi Bank tərəfindən Beynəlxalq Standartlaşdırma Təşkilatının ISO/IEC 2700X standartlarının tələbləri nəzərə alınmaqla ölkədə fəaliyyət göstərən banklarda və xarici bankların yerli filiallarında informasiya təhlükəsizliyinə dair minimum tələblər müəyyən edilib. Mərkəzi Bank tərəfindən bütün banklara bank xidmətlərinin istehlakçılarının dələduzluq hallarına qarşı ehtiyatlı olmaları, kart məlumatlarını heç bir halda üçüncü şəxslərə təqdim etməmələri üçün məlumatlılığın artırılması istiqamətində tədbirlərin görülməsi və nəzarətin gücləndirilməsi göstərişi verilib”- AMB-dən əlavə edilib.

# Sabiq deputatın şirkəti ətrafında növbəti qalmaqal

## Mahir Aslanov vətəndaşın 200 min manatını niyə qaytarmır? - İş məhkəməyədək gedib çıxdı!

***”Kəpəz-M” MTK-nın sahibi, keçmiş deputat Mahir Aslanov Hüseynağa Heydərovun 200 min manata yaxın pulunu qaytarmadığını iddia edir. Bu barədə şikayətçi Hüseynağa Heydərov məlumat verib.***

Onun sözlərinə görə, bir neçə il öncə Xırdalanda ”Kəpəz” MTK-ya məxsus 12 mərtəbəli binadan üç mənzil alıb .(ölkə.az): ”Sonra eyni mənzilləri başqalarına da satıb. Hətta mənim 1 mənzilə çıxarışım da olub. O mənzili götürüb başqasına satıb. Bizi sonra məhkəməyə verib, evlərimizin çıxarışını ləğv etdirdi. Biz Apellyasiya Məhkəməsinə müraciət etdik. Apellyasiya Məhkəməsi məsələni qüvvədə saxladı. Sonra biz Ali Məhkəməyə verdik. Çox yerə şikayət etmişik. Heç bir xeyri yoxdur.

Ali Məhkəmə Apellyasiya Məhkəməsinin qərarını tamamilə ləğv edib. Ayın 14-ü Apellyasiya məhkəməsidir. Təzədən işə baxılacaq. Ali Məhkəmədən sonra qərar təsdiq olunsa, bizim evlərimiz demək olar ki, əlimizdən çıxır. 200 min manata yaxın pulum batacaq”.

Onu da deyək ki, son vaxtlar sabiq deputat və onun adı çəkilən şirkəti ilə bağlı qalmaqallı xəbərlər intensivləşib. Uzağa getməyək, elə ötən həftə Mirzə Fətəli Axundov küçəsi, 175-177 ünvanında ”Kəpəz MTK”ya məxsus hündürmərtəbəli yaşayış binasının dam hissəsində aparılan işlərin dayandırıldığı barədə xəbər yayılıb.

Belə ki, Bakı Şəhər Memarlıq və Şəhərsalma Baş İdarəsinin bu barədə yaydığı məlumatda bildirilib ki, sözügedən qurum tərəfindən əraziyə baxış keçirilib və razılaşdırılmamış işlərin həyata keçirildiyi müəyyən edilib.

Qeyd olunub ki, aparılan işlər mövcud qanunvericiliyin tələblərinə zidd aparıldığı üçün Baş İdarə tərəfindən dayandırılıb və aktlaşdırılıb. Həmçinin qanunvericiliyin tələblərinə uyğun olaraq yerli səviyyədə şəhərsalma nəzarəti çərçivəsində müvafiq nəzarətin təmin edilməsi üçün aidiyyəti üzrə dövlət qurumlarına müraciət edilib.

Lakin maraqlı burasıdır ki, deputatın şirkətindən bildirilib ki, bina xeyli müddət əvvəl tikilərək təhvil verilib və mansarda aparılan əlavə tikintinin onlara aidiyyəti yoxdur. Sitat: “Qeyd edilən binanı “OMA” MTK inşa edib və Asəf Mirzəyev adlı şəxs rəhbərlik edir”.

Onu da əlavə edək ki, sabiq deputatın biznes şəbəkəsinə daxil olan “Kəpəz MTK” ilə bağlı daha öncə də bir sıra şikayətlər olub. Məsələn, 2021-ci ildə yerli KİV yazıb ki, Bakıda bir neçə yaşayış binası tikən ”Kəpəz” MTK-da yeyinti aşkarlanıb. İddialara görə, MTK-nın Nəsimi rayonunda tikdiyi binada mənzillər qanunsuz olaraq satılıb.

Belə ki, ”Kəpəz” MTK-nın direktoru, 1961-ci il təvəllüdlü Rəşid Quliyev Nəsimi RPİ-yə müraciət edərək bildirib ki, şirkətin işçisi, Ağdam rayon sakini, 1984-cü il təvəllüdlü Tamerlan Tağıyev ondan xəbərsiz və qanunsuz olaraq 5 ədəd mənzili başqasına satıb. Mənzillərin ümumi dəyəri təxminən yarım milyon manatdır. Bu qanunsuzluqla bağlı cinayət işi üzrə 6 vətəndaş Esmira Qasımov, Tural



Qələndərov, Hüseynağa Heydərov, Xalid Quliyev, Vüsalə Səfərova və Səfayət Hətəmova zərərçəkmiş qismində tanınıb. Tamerlan Tağıyevin barəsində Cinayət Məcəlləsinin 178.3.2-ci (külli miqdarda dələduzluq törətmək), 320.1-ci (hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) və 320.2-ci (bilə-bilə saxta sənədlərdən istifadə etmə) maddələri ilə ittiham elan olunub. Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Lakin iddialara görə, zərərçəkənlər “Kəpəz”dən nə mənzillərini ala bilirlər, nə də pullarını...

Onu da deyək ki, Mahir Aslanovun biznesi kifayət qədər genişdir: buraya adıçəkilən MTK ilə yanaşı, “Kəpəz Mebel Evi”nin, “Kəpəz Hospital”ın, “Kəpəz” və ”Happy inn” hotellərinin, eləcə də Naftalan şəhərindəki “Kəpəz” sanatoriyalarının daxil olduğu deyilir. Bundan başqa, Mahir Aslanovun dünyanın 5 ölkəsində biznesinin olmasına dair məlumatlar var.

Bəzi iddialara görə, keçmiş deputat Azərbaycan Respublikası Baş nazirinin sabiq birinci müavini Abbas Abbasovla da şərikdir.

***Toğrul Əliyev***

**5.3.15. dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Azərbaycanın tolerantlıq nümunəsi

## Faiq İsmayılov: "Qarabağda işğal dövründə ermənilər tərəfindən 50-dən çox xristian dövrü abidəsinin görünüşü dəyişdirilib"

***Olkəmizdə din dövlətdən ayrı olsa da, dini abidələrə, dini-mənəvi dəyərlərimizə qarşı dövlət səviyyəsində böyük diqqət və qayğı göstərilir. Multikultural və tolerant ölkə olan Azərbaycanda dini inancına görə heç kəsə qarşı ayrı-seçkilik edilmir, hər kəsə inancına görə hörmət edilir. Ölkəmizdə bütün dinlərin məbədləri yüksək səviyyədə mühafizə olunur. Kilsələr, sinaqoqlara qarşı xüsusi diqqət göstərilir. Hətta Bakının mərkəzində yerləşən erməni kilsəsi belə bu günədək qorunub saxlanılıb.***



Çoxmillətli ölkə olan Azərbaycan hər zaman öz multikultral dəyərlərinə, ənənəsinə görə dünyaya örnək göstərilir. Çoxmillətli, çoxkonfensiyalı ölkəmizdə azsaylı xalqlara, onların dini və mədəni dəyərlərinə hər zaman hörmət nümayiş olunur. Dövlət başçısı İlham Əliyev də bunu öz çıxışlarında dəfələrlə vurğulayıb. Prezidentimiz bildirib ki, Azərbaycan çoxmillətli, çoxkonfensiyalı, mütərəqqi dövlətdir.

"Azərbaycan vətəndaşları bütün xalqların, dinlərin nümayəndələri normal yaşayırlar, mehribanlıq, sülh şəraitində yaşayırlar. Erməni xalqı da belə yaşayacaq. Bizim erməni xalqı ilə işimiz yoxdur ", - o vurğulayıb.

Buna baxmayaraq 30 illik işğal dövründə işğalçı dövlət olan Ermənistan Azərbaycanın dini abidələrinə qarşı vandallıq nümayiş etdirib. Qarabağ ərazisində olan 67 məsciddən 63-nü ermənilər yerlə-yeksan ediblər. Qalan 4 məsciddən 3-nə isə ciddi ziyan vurulub. Şuşa şəhərində yerləşən Yuxarı Gövhər Ağa məscidində isə bəzi dəyişiklik edərək bu abidəni özününküləşdirməyə cəhd ediblər. Qubadlı rayonunun Məmər kəndində XVIII əsrdə inşa edilmiş məscid ermənilər tərəfindən tamamilə dağıdılıb. Həmçinin rayonun Dondarlı, Dəmirçilər kəndlərində olan məscidlərimiz də məhv edilib. Dağılmış Zəngilan məscidində isə erməni vandalları donuz saxlayıblar. Bu, Ermənistan tərəfindən Azərbaycana və onun müqəddəs dini abidələrinə qarşı hörmətsizlikdir. İşğaldan azad olunmuş ərazilərdə dini məbədlərimizin bərpasına dövlət səviyyəsində ciddi önəm verilir. Heydər Əliyev Fondu dini və tarixi abidələrin tikinti-təmir işlərində xüsusi rol oynayır. Qarabağda təkcə məscidlər deyil, həm də xristian dini ziyarətgahları da məhv edilib. Xocavənd rayonunda inşa edilmiş Rus Pravoslav kilsəsi xristian məbədlərinə qarşı düşmən vəhşiliyinin bir nümunəsidir.

Azərbaycan Respublikası, milli-mədəni dəyərlər üzrə tədqiqatçı Faiq İsmayılov "Unikal" qəzetinə açıqlamasında bildirib ki, Qarabağda işğal dövründə ermənilər tərəfindən 50-dən çox xristian dövrü abidəsinin görünüşü dəyişdirilib.

"Azərbaycan multikultral dövlət olduğu üçün, hər zaman öz ərazisində yaşayan azsaylı xalqlara, onların dininə hörmətlə yanaşıb. Bu gün ölkəmizin müxtəlif ərazilərində yerləşən kilsə və sinaqoqların qorunub saxlanılması buna sübutdur. Azərbaycan xalqı heç bir dinə qarşı dözümsüz deyil. Əksinə, birgəyaşayışın ən örnək təcrübəsini dünyaya sərgiləyir. Dünya dövlətləri Azərbaycanı tolerantlıq nümunəsi olaraq göstərirlər. İşğaldan əvvəlki dövrdə Azərbaycan dövləti həmin ərazilərdə məcidlər kimi kilsələri də qoruyub saxlayıb. Torpaqlarımız işğal olunduqdan sonra bütün tarixi həqiqətləri inkar edən Ermənistan hökuməti xristianlıq amilindən istifadə edərək bu tipli abidələrin divar yazılarını və bəzi bədii ornamentlərini dəyişdirərək erməniləşdirdilər. Əslində heç bir tarixi dövrdə keçmiş Dağlıq Qarabağ və ətraf ərazilərində bir dənə də olsun erməni mədəni irsinə aid abidə olmayıb. Xocavənd rayonunun Tuğ kəndinin mərkəzində Qafqaz Albaniyası dövrü memarlığına uyğun IX-X əsrlərdə inşa edilməsi güman edilən məbəd kompleksi erməni mətbuatında erməni kilsəsi kimi təqdim edilir. Halbuki bu abidə alban memarlığı üslubuna uyğundur".

F.İsmayılov deyir ki, Xocavənd rayonunun Hünərli (Sakuri) kəndində Qafqaz Albaniyası memarlığı üslubuna uyğun unikal görkəmi ilə diqqət çəkən tarixi abidə var. İnşa tarixi məlum deyil, lakin bəzi mənbələrdə bu abidənin XII əsrdə təmir edildiyi bildirilir. Abidənin memarlıq quruluşu onun dini xarakterli olmadığını göstərir. Yəni, abidə heç bir tarixi dönəmdə, hətta təmir edildikdən sonra da kilsə və ya monastr kimi istifadə edilməyib. İşğal dövründə abidə orijinal görkəmindən məhrum edilib və erməni kilsəsi kimi təqdim olunur.

Müsahibimiz deyir ki, Laçın rayonunun Kosalar kəndindəki Ağoğlan məbədi də Qafqaz Albaniyası dövrünə aiddir.İşğal dövründə mühafizə divarı dağıdılaraq divar yazı nümunələri dəyişdirilib, məbədin ətrafına 4 qəbir daşı düzülərək təmir olunduqdan sonra erməni kilsəsi kimi təqdim edilir.

F.İsmayılovun sözlərinə görə, Şuşa şəhərində Qazançı adlandırılan Rus Provaslav kilsəsi də torpaqlarımızın işğal altında olduğu dövrdə forması dəyişdirilərək erməni kilsəsi kimi təqdim olunub.

Amma müsahibimiz deyir ki, " yalan ayaq açar, yerimməz". Çünki, bu abidələrin orijinal fotoları var. Həmin fotolarla tutuşdurulduqda bu abidələrin müdaxilələrdən sonra erməniləşdirildiyi üzə çıxır. Amma F. İsmayılov bu gün paytaxtda erməni kilsəsinin olduğu kimi saxlanıldığını da söyləyir. O, bunu Azərbaycan xalqının və dövlətinin başqa xalqların dininə, inancına hörmətlə yanaşmasının bariz nümunəsi olduğunu söyləyir.

Dinşünaslarımızın qeyd etdiyinə görə, ilahi dinlərin hər birində məbəd dağıtmaq böyük günah hesab edilir. Lakin görünən odur ki, ermənilər Tanrı məbədlərini dağıtmaqla xristian ehkamlarını da pozmaqdan çəkinmirlər. İncildə bu barədə deyilir: "Kim Allahın məbədini məhv edirsə, Allah onu məhv edəcək, çünki Allahın məbədi müqəddəsdir…" (İncil, Korinflilərə I məktub, 3/17).

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# AQTA və ÜST müzakirələr aparıb

***Azərbaycan Qida Təhlükəsizliyi Agentliyində (AQTA) Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) səlahiyyətli nümayəndələri ilə görüş keçirilib.***

Bu barədə "Unikal"a AQTA-dan məlumat verilib. Bildirilib ki, görüşdə zoonoz xəstəliklərə epidemioloji nəzarət və eyni zamanda qida təhlükəsizliyi sahəsində Azərbaycanda tətbiq olunan "Erkən Xəbərdarlıq və Cavab (EWAR) Sistemi"nin real nəticələri müzakirə olunub.

Qeyd olunub ki, AQTA tərəfindən Azərbaycanda zoonoz xəstəliklərə nəzarət prioritet istiqamətlərdən biridir. Elə bu səbəbdən ölkədəki xırdabuynuzlu heyvanların taunu (PPR) xəstəliyindən azad olma statusu Ümumdünya Heyvan Sağlamlığı Təşkilatı (ÜHST) tərəfindən təsdiqlənib.

Növbəti hədəflərin isə Azərbaycanda, eləcə də regionda dabaq xəstəliyinin (FMD) ləğv olunması və xəstəliyə müasir metodlarla nəzarətin təmin edilməsi olduğu vurğulanıb.

Görüşdə zoonoz xəstəliklərin erkən aşkarlanması, risklərin qiymətləndirilməsi və cavab tədbirlərinin vaxtında verilməsi ilə bağlı məsələlər də müzakirə olunub. Qida təhlükəsizliyinə nəzarət tədbirləri və digər məsələlər üzrə məlumat verilib.

Qeyd edək ki, "Erkən Xəbərdarlıq və Cavab (EWAR) Sistemi" hər hansı xəstəlik və ya təhlükə ehtimallarını erkən aşkar edən sistemdir. Bu sistemin əsas məqsədi insanların həyatını qorumaq, xoşagəlməz halların təsirlərini minimuma endirməkdir.

# "SİMA İmza" "Dostbank" mobil tətbiqinə inteqrasiya edilib

***Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC "Bank of Baku" ASC ilə əməkdaşlığa başlayıb.***

Bu barədə "Unikal"a "AzInTelecom"dan bildirilib. "AzInTelecom" tərəfindən yaradılmış SİMA yeni nəsil rəqəmsal imza "Bank of Baku"ya məxsus "Dostbank" mobil tətbiqinə inteqrasiya edilib. Artıq "Bank of Baku" müştəriləri "Dostbank" mobil tətbiqində identifikasiya prosesini "SİMA İmza" ilə tamamlayaraq sürətli şəkildə qeydiyyatdan keçə bilərlər.

"Dostbank" mobil tətbiqinin istifadəçiləri banka getmədən kart və hesab əməliyyatları, çıxarışlar əldə edilməsi, kommunal və digər ödənişlərin aparılması, ölkədaxili və beynəlxalq bank kartlarına köçürmələr, onlayn növbə təyin edilməsi, kredit müraciəti göndərilməsi və s. kimi bir çox xidmətdən tam rəqəmsal şəkildə yararlana bilərlər.

Qeyd edək ki, SİMA yeni nəsil rəqəmsal imza ilə vətəndaşların xidmət mərkəzlərindən asılılığına son qoyulur, qurumların iş yükü və xərcləri azalır. "SİMA İmza"nın istənilən sistemə inteqrasiya oluna bilməsi istifadəçilərə sürətli və istənilən sayda imzalama imkanı qazandırır. "SİMA İmza" mobil tətbiqini yükləməklə əldə olunan yeni nəsil rəqəmsal imza vətəndaşlar üçün ödənişsizdir. Daha ətraflı məlumatı sima.az saytından və "157" Zəng mərkəzi ilə əlaqə saxlayaraq əldə etmək olar.

# Qaradağ və Abşeronda hərbi sursatlar aşkarlandı



***Fövqəladə Hallar Nazirliyinin "112" qaynar telefon xəttinə Bakı şəhərinin Qaradağ rayonu, Ələt qəsəbəsində və Abşeron rayonu, Fatmayı kəndində hərbi sursatların aşkar edilməsi barədə məlumatlar daxil olub.***

"Unikal" xəbər verir ki, məlumatlarla əlaqədar dərhal FHN-in Xüsusi Riskli Xilasetmə Xidmətinin minalardan təmizləmə üzrə çevik qrupu hadisə yerinə cəlb edilib.

Hüquq-mühafizə orqanı əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra çevik qrup tərəfindən ümumilikdə 1 ədəd 100 mm-lik top mərmisi, 4 ədəd RQD-5 əl qumbarası və 4 ədəd UZRQM partladıcısı götürülərək kənarlaşdırılıb.

Hadisə yerində və ona yaxın ətraf ərazidə əlavə axtarış zamanı başqa hər hansı təhlükəli və ya şübhəli əşya aşkar edilməyib.

# Magistratura imtahanında iştirak bahalaşıb

***Magistraturaya qəbul imtahanının ikinci cəhdində iştirak etmək üçün bakalavrların ərizə qəbulu 14 aprel saat 23:59-da başa çatacaq.***

"Unikal" xəbər verir ki, Dövlət İmtahan Mərkəzinin (DİM) məlumatına görə, 10 aprel saat 09:00-dək 6270 bakalavr ərizəsini təsdiq edib (Azərbaycan bölməsi - 5661; rus bölməsi - 609).

İkinci cəhd imtahanı 2025-ci il mayın 11-də keçiriləcək.

Qeyd edək ki, magistraturaya qəbul imtahanında iştirak 50 manat təşkil edir. Əvvəllər bu məbləğ 40 manat idi.

# DİM buraxılış imtahanında iştirak edəcək şagirdlərlə bağlı məlumat yaydı

***Aprelin 20-də Bakı şəhəri Xəzər (I zona), Sabunçu (I zona), Yasamal, Binəqədi rayonlarında, Sumqayıt (I zona), Gəncə (II zona), Mingəçevir, Lənkəran (II zona) şəhərlərində, Abşeron (I zona), Daşkəsən, Şəmkir (I zona), Gədəbəy, Qəbələ, Oğuz, Cəlilabad (I zona), Masallı (I zona), Beyləqan, Füzuli, Zəngilan, Cəbrayıl, Göyçay, Ucar, Şamaxı, Qobustan, Sabirabad, Neftçala, Hacıqabul, Xaçmaz (I zona), Quba (I zona) rayonlarında yerləşən ümumtəhsil müəssisələrinin məzunları üçün Dövlət İmtahan Mərkəzi tərəfindən 2024/2025-ci tədris ili üçün ümumi orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən xəbər verilib.

Bildirilib ki, buraxılış imtahanında iştirak edəcək şagirdlər bu linkdən istifadə etməklə özlərinin imtahana buraxılış vərəqəsini, təhsil müəssisələri isə bütün şagirdlərin imtahana buraxılış vərəqələrini çap edə bilərlər.

Şagirdlər iş nömrəsini bu linkdən öyrənə bilərlər.

Buraxılış vərəqəsini çap etmək üçün kompüterə Adobe Reader proqramı quraşdırılmalıdır və brauzerin "Pop-up blocked" sahəsindən qeyd işarəsi götürülməlidir. Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

# 4 gün komada qalan hamilə qadın sağlam körpə dünyaya gətirdi

***4 gün komada qalan hamilə qadın Kliniki Tibbi Mərkəzdə (KTM) sağlam körpə dünyaya gətirib.***

Bu barədə "Unikal"a KTM-dən məlumat verilib. Bildirilib ki, 11.10.2024-cü il tarixində 27 yaşlı hamilə qadın qıcolma sindromu ilə ağır vəziyyətdə Kliniki Tibbi Mərkəzin Doğum-Reanimasiya şöbəsinə yerləşdirilib.

Qeyd edilib ki, 4 gün həmin şöbədə komada qalan hamilə pasiyent uğurlu müalicə prosedurları nəticəsində həyata qaytarılıb. 07.04.2025-ci il tarixində və hamiləliyin 39-cu həftəsində pasiyentə qeysəriyyə kəsiyi əməliyyatı icra edilib:

"Çəkisi 3990 qram, boyu 52 sm olan sağlam körpə (kişi cinsli) dünyaya gəlib. Zəruri müayinələrdən sonra ana və körpənin səhhəti yaxşı vəziyyətdə evə buraxılıb",- deyə məlumatda qeyd edilib.

# Bazar günü 9-cu siniflərə imtahan keçiriləcək

***Aprelin 13-ü 13 9 illik orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək. Bu barədə "Unikal"a DİM-dən məlumat verilib.***



Qeyd olunub ki, aprelin 13-də Bakı şəhərinin Xətai, Nəsimi, Nərimanov, Qaradağ, Suraxanı və Səbail rayonlarında, Gəncə (I hissə), Samux, Yevlax, Qazax, Ağstafa, Şəki, Lənkəran (I hissə), Astara, Yardımlı, Ağdam, Ağcabədi, Şuşa, Xankəndi, Xocalı, Ağsu, Zərdab, İsmayıllı, İmişli, Şirvan, Biləsuvar, Qusar, Siyəzən, Xızı, Şabran) rayonlarında Dövlət İmtahan Mərkəzi tərəfindən ümumi (9 illik) orta təhsil səviyyəsi üzrə buraxılış imtahanı keçiriləcək.

İmtahan saat 11:00-da başlanır.

İmtahanın başlanmasına 15 dəqiqə qalmış - saat 10:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmırlar.

İştirakçıların imtahan binasına rahat şəkildə daxil olması üçün binaya müxtəlif gəlmə vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək tövsiyə olunur.

Şagirdlər imtahana aşağıdakı sənədləri gətirməlidirlər:

- İmtahana buraxılış vərəqəsi;
- Şəxsiyyəti təsdiq edən sənədin əsli:

a) Azərbaycan Respublikasının vətəndaşları (16 yaşı tamam olmayan iştirakçılar da daxil olmaqla) şəxsiyyət vəsiqəsini;

b) əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Dövlət Miqrasiya Xidməti tərəfindən verilmiş icazə vəsiqələrini, qaçqın statusu almış xarici vətəndaşlar və onların ailə üzvləri isə qaçqın vəsiqələrini;

- Şəxsiyyət vəsiqəsində şəkli olmayan iştirakçılar digər sənədlərlə yanaşı, təhsil müəssisəsi tərəfindən verilmiş və fotoşəkilləri yapışdırılmış arayışı (arayışa iştirakçının 3x4sm ölçülü şəkli yapışdırılır və şəkil möhürlə təsdiqlənir).

Şəxsiyyəti təsdiq edən sənədində şəkli olmayan şagirdlər buraxılış imtahanı üçün təhsil müəssisəsi tərəfindən verilməli olan arayışı DİM-in saytından yükləyə bilərlər.

İmtahanda iştirak edəcək şagirdlər "İmtahana buraxılış vərəqəsi"ni internet vasitəsilə DİM-in saytından aprelin 3-dən etibarən çap edib götürə bilirlər.

İmtahan keçirilən şəhər və rayonlarda ümumilikdə 212 imtahan binası, 3816 imtahan zalı ayrılıb. İmtahanların idarə olunmasına 620 imtahan rəhbəri və ümumi rəhbər, 4762 nəzarətçi, 685 buraxılış rejimi əməkdaşı (mühafizə) və 212 bina nümayəndəsi ayrılıb.

İmtahanda 51237 şagirdin iştirakı nəzərdə tutulur.

İmtahanda 60 nəfər sağlamlıq imkanları məhdud (gözdən əlil, serebral iflic, eşitmə əngəlli və digər) şagird də iştirak edəcək. Onların rahat şəkildə imtahan verməsi üçün imtahan binalarında xüsusi zallar ayrılıb, orqanizmin funksiyalarının 81-100 faiz pozulmasına görə gözdən əlilliyi müəyyən edilmiş şəxslərə isə fərdi nəzarətçilər təyin edilib. Hərəkət məhdudiyyətli şagirdlərin bina və zala daxil olması və hərəkəti üçün də şərait yaradılıb. Bundan əlavə, sağlamlıq imkanları məhdud iştirakçılar üçün ayrılan nəzarətçilərlə xüsusi təlim keçirilib.

Hazırda imtahanlarda iştirak edəcək nəzarətçilər, imtahan rəhbərləri, mühafizə əməkdaşları ilə onlayn şəkildə təlim-seminarlar keçirilir. Bütün imtahan binalarına baxış keçirilib, imtahan zallarında şagirdlərin rahat şəkildə imtahan verməsi üçün zəruri şərait yaradılıb.

İmtahana 1 gün qalmış təhlükəsizliyin təmin edilməsi məqsədilə imtahan mərkəzlərinə təkrar baxış da keçirilir və imtahan zalları, giriş-çıxış qapıları, binalar möhürlənməklə Daxili İşlər Nazirliyi Baş Mühafizə İdarəsinin əməkdaşlarının mühafizəsinə verilir.

# 4 mindən çox şəhid, qazi və hərbçi ailə üzvü Elm və Təhsil Nazirliyi tərəfindən işlə təmin olunub

***Elm və Təhsil Nazirliyi tərəfindən şəhid və hərbçi ailəsi üzvlərinin, Vətən Müharibəsi iştirakçısı, qazi və onların ailə üzvlərinin sosial müdafiəsi və məşğulluğunun təmin edilməsi məqsədilə davamlı tədbirlər həyata keçirilməkdədir.***




Nazirlikdən "Unikal"a verilən məlumata görə, görülmüş işlər çərçivəsində 2021-2022-ci illərdə 1900-dən çox, 2023-2024-cü illərdə isə 2200-dən çox şəhid və hərbçi ailə üzvü, qazi, müharibə iştirakçısı Elm və Təhsil Nazirliyinə tabe müəssisələrdə işlə təmin olunub.

Qeyd edək ki, şəhid, qazi, hərbçi və Vətən müharibəsi iştirakçılarının ailə üzvləri tərəfindən işə qəbulla əlaqədar edilən müraciətlər hər zaman xüsusi diqqətdə saxlanılır.

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:33 PM Page 14



# Son ana qədər səngərdən çıxmayan Əhməd Məmmədov - Şəhadətindən 31 il ötür

***11 aprel Birinci Qarabağ savaşının şəhidi Əhməd Məmmədovun şəhadətə yüksəlməsinin 31-ci il dönümüdür.***

Şəhidimiz 1959-cu il aprelin 1-də Cəbrayıl rayonunun Hacılı kəndində doğulub. 1965-ci ildə orta məktəbə gedib, 1975-ci ildə məktəbi bitirib. Onu uşaqlıqdan tanıyan adamlar deyirlər ki, Əhməd Məmmədov uşaq yaşlarından ermənilləri qəbul etmirdi. Rayon və kənd ərazisində erməni görəndə onlarla dava etməyə çalışırdı. Soruşanda niyə belə edirsən, hələ 8 yaşı olan Əhməd Məmmədov deyirdi ki, onların üzündən yaxşı adam olmadığı görünür. Onlar bura gəlməsinlər deyirdi.

10 illik orta təhsili bitirəndən sonra oxuyub və işləmək üçün Sumqayıta gəlir. Gənc şəhəri sevən Əhməd Məmmədov digər yerdə yox məhz Sumqayıtdakı Kimya Texnologiya texnikumunda oxumaq istəyir. Həmin il sənədlərini həmin texnikoma verir, lakin sonra təhsilini davam etdirmir, sovet təhsil sistemində qohumluq və rüşvəti görüb daimi etiraz edir, ədaləti tələb edir, lakin o zamankı sistem onun haqsızlığa qarşı etirazını bildirdiyi üçün cəzalandırır, o isə cəzanı qəbul etməyib texnikumu yarımçıq qoyur. Sonra hərbi xidmətə yollanır. Macarıstanda xidmət edir. Hərbiyə marağı olduğuna görə müxtəlif təyinatlı bölüklərdə olur. Həm rabitə, həm artileriya üzrə hərbi bacarıqlarına görə seçilir. Orduda qalıb xidmətini davam etməsini komadrileri neçə dəfə təklif etsə də “Azərbaycansız yaşaya bilmərəm” deyib. 1979-cu ildə hərbi xidmətini başa vurub geri qayıdır.



Əmək fəaliyyətinə Sumqayıtda Sintez kauçuk zavodunda başlayır.

1993-cü ildə Cəbrayılın işğalından sonra könüllü olaraq, Milli Ordu sıralarına qoşulur. Elə yaşadığı Sumqayıt batalyonuna yazılır. Ailəli, üç övladı olmasını ona deyib arxa cəhbədə qalmasını təklif edirlər. Lakin o heç kimi eşitmir “Qarabağ kişilər yurdudur və qarabağı da oranın kişiləri qorumalıdır” deyib inad edir.

O, Ağdamın Papravənd, Çəmənli, Güllücə kəndləri ərazisində gedən döyüşlərdə iştirak edir. Döyüş yoldaşlarının söhbətlərinə görə, onun xüsusi hərbi bacarığı nəticəsində onlarla düşmən əsgəri məhv edilib. Gənc əsgərləri sinəsi ilə qoruyurdu. Şahidlər deyirlər ki, ən çox atəşə məruz qalan əraziyə gedib gənc əsgərləri ordan çıxardır, özü təkbaşına düşmənə qarşı savaşırdı, neçə neçə gənci ağır döyüş bölgəsindən xilas edib.

11 aprel 1994-cü ildə Ağdam rayonunun Çəmənli, Güllücə, Gültəpə yüksəklikləri və kəndlərinin müdafiəsi uğrunda gedən döyüşlər o qədər ağır keçir ki, Bakıdan belə xəbər verirlər ki, geri çəkilin, özünüzü ölümə verməyin. Amma heç bir kəs geri çəkilmək istəmir. Döyüş zamanı üç güllə yarası alır, lakin döyüş yerini tərk etmir və qəhrəmancasına həlak olur. Şahidlərin dediyinə görə onun şəhidlik zirvəsinə ucaldığı anda əlində bir ovuc torpağı sıxıb saxlamışdı. Əhməd Məmmədov Sumqayıt şəhərində dəfn edilib.

# İzmirdə azərbaycanlılara qarşı törədilmiş soyqırımlara həsr olunmuş konfrans keçirilib

***”Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyi, Bakı Dövlət Universiteti, Türkiyənin Dokuz Eylül Universiteti və İzmir Azərbaycan Dərnəyinin təşkilatçılığı, Azərbaycan Respublikasının Türkiyədəki Səfirliyinin tərəfdaşlığı ilə 9 aprel 2025-ci il tarixində İzmir şəhərində yerləşən Dokuz Eylül Universitetində ”20-ci əsrdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırım və sürgünlər” mövzusunda panel-konfrans keçirilib.***

”Unikal” xəbər verir ki, tədbirdən öncə panel-konfrans iştirakçılarını qarşılayan Dokuz Eylül Universitetinin rektoru Prof. Dr. Bayram Yılmaz onları universitetdə salamlamaqdan məmnun olduğunu ifadə edib, Azərbaycan və Türkiyə arasındakı qardaşlıq əlaqələrinin təhsil və elm sahəsində də möhkəmlənməsinin əhəmiyyətini vurğulayıb. Rektor bu təşəbbüsə görə təşkilatçılara təşəkkürünü bildirib və tədbirin uğurla keçəcəyinə əminliyini ifadə edib.

Tədbir iki ölkənin dövlət himnlərinin səslənməsi və soyqırım qurbanlarının xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başlanıb. Daha sonra tədbirin moderatoru, Dokuz Eylül Universitetinin professoru Prof. Dr. Dilşen İnce Erdoğan iştirakçıları salamlayaraq panel-konfrans barədə məlumat



verib.

Açılış nitqləri ilə çıxış edən “Zəfər” Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Orucova, Təhsilin İnkişafı Fondunun Layihələrin idarə olunması şöbəsinin layihələr üzrə meneceri, şəhid general-mayor Polad Həşimovun həyat yoldaşı Ofelya Salmanova və İzmir Azərbaycan Dərnəyinin (İZAZDER) İdarə Heyətinin sədri Pərviz Altay bu tədbirin keçirilməsinin vacibliyindən, xüsusilə XX əsrdə Azərbaycan xalqına qarşı törədilmiş soyqırımların tarixə əsaslanan faktlarla dünya ictimaiyyətinə çatdırılmasının əhəmiyyətindən danışıblar.

Daha sonra panel müzakirələrinə start verilib. Paneldə Dokuz Eylül Universitetinin tarix fakültəsinin professoru Prof. Dr. Dilşen İnce Erdoğan, Bakı Dövlət Universitetinin tarix fakültəsinin dosenti Dr. Aydın Məmmədov, Aydın Adnan Menderes Universitetinin professoru Prof. Dr. Ahmet Toksoy və Dokuz Eylül Universitetinin İctimai-Hüquq fakültəsinin dosenti Dr. Uğur Samancı çıxış edərək 20-ci əsrdə azərbaycanlılara qarşı törədilmiş soyqırımlar və deportasiyalar barədə elmi araşdırmalara əsaslanan təqdimatlarla çıxış ediblər. Məruzəçilər tarixi sənədlər və arxiv materialları əsasında soyqırım hadisələrinin miqyasını, səbəblərini və nəticələrini təhlil ediblər.

Panel-konfrans iştirakçılar - yerli ictimaiyyət və universitet tələbələri tərəfindən böyük maraqla



qarşılanıb və tədbirin sonunda mövzu ilə bağlı sual-cavab sessiyası təşkil olunub.

Qeyd edək ki, keçirilmiş panel-konfrans, 2024-cü ildə Türkiyənin Ege Universitetində təşkil olunmuş analoji mövzulu tədbirin davamı kimi gerçəkləşdirilib. Azərbaycan həqiqətlərinin beynəlxalq elmi platformalarda sistemli şəkildə təqdim olunması məqsədi daşıyan bu təşəbbüs çərçivəsində növbəti konfransın 11 aprel 2025-ci il tarixində Eskişehir şəhərindəki Anadolu Universitetində keçirilməsi nəzərdə tutulur.

# Siyəzən rayonunda sənaye məhsulunun istehsalı artıb




***Siyəzən rayonunda 2024-cü ildə 33158,9 min manatlıq sənaye məhsulu istehsal edilmiş və sənaye xarakterli xidmətlər göstərilmişdir ki, bu da 2023-cü il ilə müqayisədə sabit qiymətlərlə 23,0 faiz çox olmuşdur. Ümumi istehsalın 59,6 faizini sənaye məhsulları, 40,4 faizini isə sənaye xarakterli xidmətlər təşkil etmişdir.***

Məhsulun 25,64 faizi mədənçıxarma, 33,85 faizi emal, 35,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 5,41 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunmuşdur.

Qeyri-dövlət sektorunda istehsalın həcmi 17187,3 min manat təşkil etmiş və sənaye məhsulunun 51,8 faizini təşkil etmişdir.

İstehlakçılara 33158,9 min manatlıq sənaye məhsulu göndərilmiş, 01 yanvar 2025-ci il tarixinə sənaye müəssisələrinin anbarlarında 299,6 min manatlıq hazır məhsul ehtiyatı qalmış və sənayenin ümumi məhsulunun 0,9 faizini təşkil etmişdir.

***Kamil Xəlilov,***
***Siyəzən Rayon Statistika İdarəsinin rəisi***

# Goranboy rayonunda yazlıq bitkilərin əkini

***Goranboy rayonunda yazlıq bitkilərin əkininə başlanılmışdır. 2025-ci ilin yanvar-mart aylarında 2786,2 hektar sahədə və ya 2024-cü ilin eyni dövrü ilə müqayisədə 11,7 faiz çox yazlıq bitkilərin səpini aparılmışdır.***

Bu dövrdə 465,5 hektar sahədə dənlilər və dənli paxlalı bitkilər (ondan 152,0 hektarı dən üçün qarğıdalı), 107,0 hektar sahədə kartof, 679,7 hektar sahədə tərəvəz, 9,0 hektar sahədə bostan bitkiləri, 902,0 hektar sahədə dən üçün günəbaxan və 623,0 hektar sahədə çoxillik otlar əkilmişdir.

***Qrafik 1***




***Cədvəl 1***

| | 2025-ci il yanvar-mart | 2024-cü il yanvar-mart | 2025-ci ilin yanvar-mart ayları 2024-cü ilin müvafiq dövrünə nisbətən, %-lə |
|---|---|---|---|
| Yaz əkininin əvvəlindən əkilmişdir | 2786.2 | 2494.3 | 111.7 |
| Dənlilər və dənli paxlalı bitkilər (qarğıdalısız) | 313.5 | 228.0 | 137.5 |
| buğda | 9.0 | 2.0 | 4.5 d. |
| vələmir (yulaf) | 16.0 | 25.0 | 64.0 |
| Dən üçün qarğıdalı | 152.0 | 164.0 | 92.7 |
| Yem bitkiləri | 623.0 | 769.0 | 81.0 |
| Dən üçün günəbaxan | 902.0 | 448.0 | 2.0 d. |
| Kartof | 107.0 | 144.0 | 74.3 |
| Tərəvəz | 679.7 | 711.3 | 95.6 |
| Bostan bitkiləri | 9.0 | - | - |
| Şəkər çuğunduru (emal üçün) | - | 30.0 | - |

***Goranboy Rayon Statistika İdarəsi***

13_27 IYUl-QARA.qxd 4/10/2025 10:33 PM Page 15



# Qriqoryan erməni KİV-in Azərbaycanla bağlı xəbərini təkzib etdi



***Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan erməni KİV-də yayılan Azərbaycan qüvvələrinin guya sərhədə yaxın ərazilərdə toplaşması xəbərini təkzib edib.***

"Unikal" xəbər verir ki, bu barədə o, hökumətin iclasından sonra keçirilən brifinqdə deyib.

Qriqoryan Azərbaycan qüvvələrinin sərhədə yaxın yerdə cəmləşməsi barədə suala cavab olaraq bu məlumatın haradan gəldiyini soruşub və şayiələrə inanmamağı tövsiyə edib.

Təhlükəsizlik Şurasının katibi etibarlı məlumat ortaya çıxsa, bunun ictimaiyyətə açıqlanacağını bildirib: "Mənbənizdən sizə daha konkret məlumat verməsini xahiş edin. Güman edirəm ki, o, belə bir şey görməyib, çünki görsəydi, sistemlərimiz də bunu görərdi. Ermənistan Respublikası üçün təhlükə görsək, onu ictimaiyyətə təqdim edəcəyik".

*Ağarza Elçinoğlu*

# 125 faizlik tarifdən sonra Si Cinpinə tərif yağdırdı - "Xoşuma gəlir"

***ABŞ prezidenti Donald Tramp Çin prezidenti Si Cinpinlə görüşə hazırdır.***

"Unikal" TASS-a istinadən xəbər verir ki, bunu Amerika lideri Ağ Evdə jurnalistlərin suallarını cavablandırarkən deyib.

"Əlbəttə. O, mənim dostumdur. O, xoşuma gəlir. Ona hörmət edirəm. Ancaq ölkəmizlə yaxşı rəftar etmədilər", - deyə Tramp Çin lideri ilə görüşə hazır olub-olmadığı ilə bağlı suala cavabında deyib.

Qeyd edək ki, Donald Tramp bundan əvvəl Çinə tətbiq etdiyi tarifi 125 faizə yüksəltdiyini açıqlayıb.

# Ukrayna Kurskda qalmaq üçün milyardlar xərcləyib - KİV



***Ukrayna Silahlı Qüvvələrinin qoşunlarının Kursk vilayətində səkkiz ay saxlanması Kiyevə və onun Qərb tərəfdaşlarına 2,4 milyard dollara başa gəlib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiyanın "RİA Novosti" agentliyi məlumat dərc edib. Bildirilir ki, bu məbləğə pul müavinəti, yemək, geyim və digər xərclər daxildir.

"Bu da hər bir döyüşçü üçün orta hesabla ayda təxminən 5000 dollar təşkil edir", - agentlik yazıb.

Qeyd edək ki, Ukrayna Silahlı Qüvvələri ötən ilin avqustun 6-da Rusiyanın Kursk vilayətinə hücuma keçib.

*Gülayə Mecid*

# Kadırov polisi öldürən yeniyetmənin meyitini meydanda nümayiş etdirdi

***Çeçenistanın Açxoy-Martan şəhərindəki meydanda yol polisini öldürən 17 yaşlı Eskerhan Xumaşevin cəsədi nümayiş etdirilib.***

"Unikal" xəbər verir ki, bu barədə Rusiya KİV məlumat yayıb. Görüntülər Açxoy-Martan bələdiyyə dairəsi administrasiyasının yaxınlığındakı şəhər meydanında lentə alınıb. Burada Çeçenistan rəhbəri Ramzan Kadırovun portreti ilə üzbəüz yerləşdirilmiş Xumaşevin cəsədi və "Axmat gücdür" yazısı görünür.

Bundan əvvəl Kadırov hüquq-mühafizə orqanlarına Xumaşevlər ailəsini və yol polisi postuna hücumun təşkilatçılarını Çeçenistandan qovmağı, həmçinin ata və qardaşlarının əmlakını müsadirə etməyi tapşırmışdı. Respublika başçısı cinayəti ukraynalının təşkil etdiyini bəyan edib. Onun sözlərinə görə, əsas kurator hazırda Ukrayna vətəndaşı olan və Kiyev vilayətində qeydiyyatda olan Donetsk vilayətinin Krasnoarmeysk şəhərindən olan 32 yaşlı şəxs olub.

Xatırladaq ki, iki gün öncə Çeçenistanın Açxoy-Martan şəhərində yol polisi postuna bıçaqla hücum edilib. Nəticədə bir polis ölüb, bir neçə nəfər yaralanıb.

*Ağarza Elçinoğlu*

# "İsrail İrana qarşı hərbi əməliyyata rəhbərlik edə bilər" - Tramp

***"Tərəflər nüvə proqramı ilə bağlı razılığa gələ bilməsələr, İsrail İrana qarşı potensial hərbi əməliyyata rəhbərlik edə bilər".***



"Unikal" xəbər verir ki, bunu Amerika lideri Oval kabinetdə jurnalistlərin Tehranın nüvə sazişi ilə razılaşmadığı təqdirdə İrana qarşı hərbi vasitələrdən istifadənin mümkünlüyü ilə bağlı sualına cavab olaraq deyib.

Bununla Tramp, İsrailin İrana zərbə endirəcəyi ilə bağlı Tehranı açıq şəkildə hədələyib: "Bizdən heç kim məsul deyil - biz nə etmək istəyiriksə onu edirik".

ABŞ prezidenti həmçinin bildirib ki, şənbə günü Omanda keçirilməsi planlaşdırılan sammit prosesin "başlanğıcıdır". Onun Yaxın Şərq üzrə nümayəndəsi Stiv Vitkoff ABŞ-ni, İranı isə xarici işlər naziri Abbas Əraqçi təmsil edəcək.

*Gülayə Mecid*

# "Bizim əsrlər boyu dövlətimiz olmayıb" - Paşinyan

***"Bizim əsrlər boyu dövlətimiz olmayıb". "Unikal" xəbər verir ki, bunu Ermənistanın baş naziri Nikol Paşinyan bu gün hökumətin iclasında deyib.***

Baş nazir çıxışında dövlətin superkompüterdən istifadə etməyi öyrənməli olduğunu bildirib: "Xüsusən də hökumət və Təhsil, Elm və Texnologiya Nazirliyi superkompüteri idarə etməyi öyrənməlidir.

Daha geniş kontekstdə desək, superkompüter həm də dövlətdir. Bizim əsrlər boyu dövlətimiz olmayıb. Dövlət ən mürəkkəb superkompüterdən daha mürəkkəbdir. Bu bizim problemimizdir. Bundan necə istifadə edəcəyimizi bilmirik. Biz superkompüteri götürüb onunla top oynamaq istəyirik, amma o, bunun üçün nəzərdə tutulmayıb".



Paşinyan həmçinin qeyd edib ki, ölkə rəhbərliyinin bilikli olmaması insanları cəhalətə sürükləyir: "İnsanlar niyə bilikdən məhrumdurlar? Çünki liderinin biliyi azdır. Sanki 7 ildir birinci sinifdə qalmışam. Çünki birlikdə oxusaydıq, bu dediklərimi 6 il əvvəl deyərdim. İndi bu haqda danışmağım o deməkdir ki, hər birimiz 7 ildir birinci sinifdə oxuyuruq. İnsanlar bilikdən məhrumdur, niyə? çünki bizim biliyimiz azdır. Bu insanlara rəhbərlik edən bizik. Biz bu insanları yoxsulluğa, cəhalətə və sairə aparırıq".

*Ağarza Elçinoğlu*

# ABŞ və Rusiya arasında məhbus mübadiləsi olub

***Rusiya və ABŞ Əbu-Dabidə iki ölkə arasında etimadı gücləndirmək siyasəti çərçivəsində məhbus mübadiləsi həyata keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Mərkəzi Kəşfiyyat İdarəsinin direktoru Con Ratkliff məlumat yayıb.



Bildirilir ki, Rusiya ABŞ və Rusiya vətəndaşı Kseniya Karelinanı azad edib. 2024-cü ildə o, ABŞ-dəki Ukrayna təşkilatına 100 dollardan az pul köçürdüyünə görə vətənə xəyanətdə təqsirli bilinərək Rusiyada ciddi rejimli həbsxanada 12 il müddətinə azadlıqdan məhrum edilib. Rusiya FSB bəyan edib ki, bu vəsait Ukrayna Silahlı Qüvvələrinin əsgərləri üçün avadanlıq, sursat və digər əşyaların alınmasına sərf edilib.

Birləşmiş Ştatlar öz növbəsində 2023-cü ilin avqustunda Kiprdə Amerika hakimiyyətinin tələbi ilə Rusiya ordusu üçün silah istehsalı üçün nəzərdə tutulan mikroelektronika ixracına görə saxlanılan Almaniya və Rusiya vətəndaşı Artur Petrovu azad edib. Ümumilikdə ona 11 maddə üzrə ittiham irəli sürülüb.

*Gülayə Mecid*

# İrəvan yeni Konstitusiya mətnini 2026-cı ildə hazır edəcək



***Konstitusiya layihəsinin mətni 2026-cı il seçkilərinə qədər hazır olmalıdır.***

"Unikal" xəbər verir ki, bunu Ermənistan Respublikası ədliyyə nazirinin müavini Tiqran Dadunts hökumətin brifinqində deyib.

Onun sözlərinə görə, Konstitusiya İslahatı Şurası buraxılmayıb, o, hazırda fəaliyyət göstərir və mətn üzərində işdə Ədliyyə Nazirliyi onlarla əməkdaşlıq edir: "Konstitusiya hər bir dövlətin və dövlətçiliyin əsasını təşkil etdiyi üçün qanunauyğunluğu ictimaiyyət tərəfindən şübhə altına alınmayan Konstitusiyaya sahib olmalıyıq. Preambulada dəyişiklik edilməsi məsələsi müzakirə olunmur".

*Ağarza Elçinoğlu*

# Aİ Trampın tariflərinə qarşı tədbirləri dayandırıb

***Avropa İttifaqı ABŞ-nin tariflərinə qarşı əks tədbirlərin tətbiqini 90 gün müddətinə dayandırıb.***

"Unikal" xəbər verir ki, bu barədə Avropa Komissiyasının rəhbəri Ursula fon der Leyen məlumat verib.

Xatırladaq ki, ötən gün Amerika Birləşmiş Ştatları 75-dən çox ölkəyə ticarət tariflərini 90 gün müddətinə dayandırmışdı.

*Gülayə Mecid*

13_27 IYUI-QARA.qxd 4/10/2025 10:34 PM Page 16



# Van Damm bu iddiaları absurd adlandırdı

***Jan-Klod Van Damm ona qarşı səsləndirilən qadın alveri iddialarını absurd adlandırıb.***




"Unikal" xəbər verir ki, bu barədə CNN məlumat yayıb.

Rumıniyanın Mütəşəkkil Cinayətkarlıq və Terrorizmlə Mübarizə Departamenti (DIICOT) 64 yaşlı Hollivud aktyoruna qarşı cinsi əlaqə üçün ona beş qadının hədiyyə edildiyi iddiası ilə cinayət işi açıb.

Bildirilib ki, Van Damm Kanna səfəri zamanı qadınlar ona hədiyyə kimi verilib.

İddia edilən qurbanlardan biri ifadə verdikdən sonra Van Damm bu işə cəlb edilib.

Aktyorun vəkili Patrik Qoavek ittihamları rədd edərək, onları gülünc və əsassız adlandırıb: "Cənab Jan-Klod Van Damm ilə Kannda iddia edilən bir əlaqə ilə bağlı məqalələrdən xəbərdar olduq. Təqdim olunan faktlar həm qroteskdir, həm də əsassızdır dedi. Cənab Van Damm əsassız olduğu qədər də absurd olan bu xəbərləri şərh etmək və ya təbliğ etmək istəmir".

*Ağarza Elçinoğlu*

# "Barselona" "Dortmund"u darmadağın etdi, PSJ geri düşdüyü matçda qələbə qazandı

***UEFA Çempionlar Liqasında 1/4 final mərhələsinin ilk matçlarına yekun vurulub.***



"Unikal" xəbər verir ki, son oyun günündə də iki qarşılaşma keçirilib. İspaniya "Barselona"sı doğma meydanda Almaniyanın "Borussiya Dortmund" klubunu darmadağın edib - 4:0. Qolları Rafinya, Robert Levandovski (2) və Lamin Yamal vurublar.

Digər oyunda isə Fransa PSJ-si İngiltərənin "Aston Villa" komandasını sınağa çəkib. Paris təmsilçisi rəqibinə 3:1 hesabı ilə qalib gəlib. Meydan sahiblərinin heyətində Dezire Due, Xviça Kvaratsxeliya və Nunu Mendeş fərqləniblər. Qonaqların qoluna isə Morqan Rocers imza atıb.

Qeyd edək ki, bu raundun əvvəlki matçlarında İspaniya "Real Madrid"i İngiltərədə "Arsenal"a 0:3, Almaniya "Bavariya"sı isə evdə İtaliya "İnter"inə 1:2 hesabı ilə uduzub. Cavab görüşləri aprelin 15-16-da təşkil olunacaq.

# Avropa Liqası: "Yunayted" "Lion", "Ayntraxt" "Tottenhem" səfərində

***Avropa Liqasında 1/4 final mərhələsi başlayıb.***

"Unikal" xəbər verir ki, ilk oyunların hamısı eyni gündə keçiriləcək. "Mançester Yunayted" Fransada "Lion"un qonağı olub. "Tottenhem" Londonda "Ayntraxt"ı qəbul edəcək. "Latsio" səfərdə "Budo Qlimt"lə qarşılaşacaq. "Atletik" isə "Reyncers"lə üz-üzə gələcək.

1/4 finalın cavab oyunları aprelin 17-də keçiriləcək.

Avropa Liqası, 1/4 final, ilk oyunlar

**10 aprel**

20:45. "Budo Qlimt" (Norveç) - "Latsio" (İtaliya)

23:00. "Lion" (Fransa) - "Mançester Yunayted" (İngiltərə)

23:00. "Tottenhem" (İngiltərə) - "Ayntraxt" (Almaniya)

23:00. "Reyncers" (Şotlandiya) - "Atletik" (İspaniya)




# 55 nömrəli "Bakcell" avtomobili nüfuzlu sürət yarışında

***İnnovasiya və sürət lideri "Bakcell"in dəstəyi ilə azərbaycanlı pilot Gülhüseyn Abdullayev 4-6 aprel tarixlərində Dubay şəhərində keçirilən "Gulf Radical Cup" yarışında iştirak edib.***

"Unikal" xəbər verir ki, "Bakcell" brendi altında yarışda iştirak edən 27 yaşlı təmsilçimiz qatıldığı turnirin bütün mərhələlərində uğurlu çıxışı ilə yadda qalıb.

Qeyd edək ki, avtomobil nömrəsi "Bakcell" brendinə uyğun olaraq 55 nömrə olan həmyerlimiz yarışın standartlarına müvafiq 1.5 motor həcmli, 232 at gücü qüvvəsinə malik maşınla çıxış edib.

**"Bakcell" haqqında**

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda "Bakcell" üç milyondan çox müştərini yüksək keyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Şirkət süni intellektə əsaslanan innovasiyalar və həllər vasitəsilə Azərbaycanın davamlı inkişafına töhfə verir və Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biridir.

"Bakcell" müxtəlif ölkələrdə enerji, telekommunikasiya, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən "NEQSOL Holding" beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.

# Könül Mehdiyeva UEFA-dan təyinat alıb

***AFFA-nın vitse-prezidenti və İcraiyyə Komitəsinin üzvü Könül Mehdiyeva UEFA-dan növbəti təyinat alıb.***



"Unikal" xəbər verir ki, Könül Mehdiyeva UEFA Konfrans Liqasının 1/4 final mərhələsi çərçivəsində keçiriləcək "Rapid" (Avstriya) - "Djurgarden" (İsveç) oyununun UEFA nümayəndəsi olacaq.

Bununla ilk dəfə Azərbaycandan olan nümayəndə avrokuboklarda bu mərhələyə təyinat alıb.

Aprelin 17-də Vyanada təşkil olunacaq görüş Bakı vaxtı ilə saat 23:00-da başlayacaq.

# Güləşçimiz Avropa çempionu oldu



***Azərbaycanın sərbəst güləşçisi Giorgi Meşvildişvili Slovakiyanın paytaxtı Bratislavada keçirilən Avropa çempionatında qızıl medal qazanıb.***

"Unikal" xəbər verir ki, 125 kq çəki dərəcəsində mübarizə aparan təmsilçimiz finalda Solomon Manaşvilini (Gürcüstan) məğlub edib.

Bu, Azərbaycan millisinin yarışdakı ilk qızıl medalı olub.

Qeyd edək ki, daha əvvəl güləşçilərimizdən İslam Bazarqanov (57 kq), Əli Rəhimzadə (65 kq), Kənan Heybətov (70 kq) və Ağanəzər Novruzov (74 kq) bürünc, Osman Nurməhəmmədov (92 kq) isə gümüş medala sahib çıxıblar.

# Ronaldonun hoteli yandı

***Portuqaliya millisinin və "Ən-Nəsr"in ulduzu Kriştianu Ronaldonun Mərakeşdəki hotelində yanğın baş verib.***



"Qafqazinfo" bu barədə "Goal" nəşrinə istinadən xəbər verir. Məlumata görə, "Pestana CR7" adlı 4 ulduzlu hotelə ciddi ziyan dəyib.

Hadisə nəticəsində xəsarət alan olmayıb.

İlkin məlumata görə, yanğına səbəb qısaqapanma olub.

# Federasiya rəsmisi güləşçiyə "satqın" dedi - Xetaq Qazyumov etiraz etdi




***Slovakiyanın paytaxtı Bratislavada keçirilən sərbəst güləş üzrə Avropa çempionatının mükafatlandırma mərasimi zamanı qalmaqal yaşanıb.***

Rusiya İdman Güləşi Federasiyasının prezidenti Mixail Mamiaşvili Albaniyanı təmsil edən osetin əsilli güləşçi Çermen Valiyevə medal verərkən onu "satqın" adlandırıb.

Federasiya rəsmisi əsəbi şəkildə medalı idmançının boynundan asıb. Ç.Valiyev də buna etirazını bildirib.

Hadisənin şahidlərindən biri Azərbaycan millisinin baş məşqçisi Xetaq Qayzumov da rusiyalı nümayəndəyə öz etirazını bildirib. Nəticədə ara qarışıb və qalmaqal paltardəyişmə otağına qədər davam edib.

Qeyd edək ki, 74 kq çəki dərəcəsinin finalında Çermen Valyev məhz Rusiya təmsilçisi Zaurbek Sidakova qalib gələrək Avropa çempionu adını qazanıb.